**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**“Azərbaycan Respublikasında islahatlar kontekstində sahibkarlığın inkişafı üçün sosial amillər” mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Allahverənova Nərmin Bünyad**

**BAKI - 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**"____" ________________ 2020-ci il**

**"Azərbaycan Respublikasında islahatlar kontekstində sahibkarlığın inkişafı üçün sosial amillər"**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060404 - "İqtisadiyyat"
**İxtisaslaşma:** "İqtisadiyyatın hüquqi tənzimlənməsi"
**Qrup:** 32


**Magistrant:**

**Allahverənova Nərmin Bünyad qızı**

**______________________ imza**

**Elmi rəhbər:**

**i.ü.f.d., dos. Nəcəfova Kəmalə Akif qızı**

**____________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**

**______________ imza**

**Kafedra müdiri:**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**

**______________________imza**


**BAKI - 2020**

## Elm andı

Mən, Allahverənova Nərmin Bünyad qızı and içirəm ki, “Azərbaycan Respublikasında islahatlar kontekstində sahibkarlığın inkişafı üçün sosial amillər” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## AZƏRBAYCAN RESPUBLİKASINDA İSLAHATLAR KONTEKSTİNDƏ SAHİBKARLIĞIN İNKİŞAFI ÜÇÜN SOSİAL AMİLLƏR

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Sahibkarlıq fəaliyyəti insanlar arası münasibətlərin qurulmasını və insanlarda tələbat prinsiplərinin üstün mövqe tutmasını özündə ehtiva etdirir. Bu aspektdən yanaşsaq sahibkarlığın inkişafının iqtisadi-sosial səmərəsi cəmiyyətin iqtisadi-sosial inkişafında xüsusi əhəmiyyət kəsb edir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədini dünyada və Azərbaycan Respublikasında sahibkarlığın inkişafını və bu inkişafda sosial amillərin rolunu təhlil etmək təşkil edir.**

**İstifadə olunmuş tədqiqat metodları: Dissertasiya mövzusunun tədqiqi və təhlili prosesində müqaisəli-statistik, sistemli təhlil, induksiya, deduksiya və s. kimi metodlarından istifadə edilmişdir.**

**Tədqiqatın İnformasiya bazası: Tədqiqatın informasiya bazasını mövzu ilə bağlı elmi-tədqiqat işləri, Dövlət Statistika Komitəsinin materialları, sahibkarlıq sahəsində keçirilən islahatlar, rəsmi internet saytlar və s. təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunun mükəmməl şəkildə tədqiq və təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması və Azərbaycanda innovasiya sahibkarlığının inkişafı ilə əlaqədar tədqiqat aparılması üçün kifayət qədər elmi tədqiqat işləri, məqalə məlumatları və s. olmaması məhdudiyyət yaradır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Əsas elmi nəticələr aşağıdakılarddır:**

**- sahibkarlıq fəaliyyətiylə onun sosial nəticələri arasındakı əlaqənin, habelə yeni iş yerləri, yoxsulluğun azaldılması, məşğulluğun artırılması və regionların sosial-iqtisadi inkişafı arasında əlaqənin hazırki vəziyyəti dəyərləndirilmişdir;**

**- innovasiya sahibkarlığının inkişafında dövlət dəstəyi qiymətləndirilmişdir.**

**Tədqiqatın praktiki əhəmiyyəti mövzu ilə bağlı gələcək elmi-tədqiqat işlərində istifadə oluna bilməsidir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Aparılmış tədqiqat və əldə olunan nəticələr sahibkarlığın inkişafı və bu inkişafda sosial amillərin rolu ilə əlaqədar gələcəkdə nəzərdə tutulan elmi tədqiqat işləri, qəbul ediləcək rəsmi sənədlər və s. üçün əsas ola bilər.**

**Açar sözlər: sahibkarlıq, innovativ fəaliyyət, innovasiya sahibkarlığı**

**SOCIAL FACTORS FOR THE DEVELOPMENT OF ENTREPRENEURSHIP IN THE CONTEXT OF REFORMS IN THE REPUBLIC OF AZERBAIJAN**


## SUMMARY

**The actuality of the subject: Entrepreneurial activity is based on the establishment of relations between people, and at the same time the principles of self-interest prevail in people. From this point of view, the socio-economic benefits of entrepreneurship development are especially relevant in the socio-economic development of society.**

**Purpose and tasks of the research: The purpose of the study is to analyze the development of entrepreneurship in the world and in the Republic Azerbaijan and the role of social factors in this development.**

**Used research methods: Comparative-statistical, systematic analysis, induction, deduction and other methods were used in the process of research and analysis of the dissertation topic.**

**The information base of the research: The information base of the research includes research work on the topic, materials of the State Statistics Committee, reforms in the field of entrepreneurship, official websites, etc. contane.**

**Restrictions of research: Insufficient database for perfect research and analysis of the research topic and insufficient scientific research and article data for research related to the development of innovative entrepreneurship in Azerbaijan create limitations.**

**The novelty and practical results of investigation: The main scientific results are as follows:**

**- The current state of the relationship between entrepreneurial activity and its social outcomes, including new jobs, poverty reduction and socio-economic development of the regions was assessed;**

**- state support in the development of innovative entrepreneurship was assessed;The practical significance of the research is that it can be used in future research on the topic.**

**Scientific-practical significance of results: The main practical significance of the research is that the results and suggestions formed in the dissertation can be used in activities related to the development of entrepreneurship. The conducted research and the obtained results are related to the future research work related to the development of entrepreneurship and the role of social factors in this development, the official documents to be adopted, etc. may be the key to.**



**Key words: entrepreneurship, innovative activity, innovative entrepreneurship**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ETT** | Elmi Texniki Tərəqqi |
| **KİM** | Kiçik İnnovasiya Müəssisələri |
| **KOB** | Kiçik və Orta Biznes |
| **KOBİA** | Kiçik və Orta Biznesin İnkişafı Agentliyi |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **MİS** | Milli İnnovasiya Sistemi |
| **ÜDM** | Ümumi Daxili Məhsul |

MÜNDƏRİCAT

**GİRİŞ ..................................................................................................... 8**

**I FƏSİL. AZƏRBAYCAN İSLAHATLARI KONTEKSTİNDƏ SAHİBKARLIĞIN ÖYRƏNİLMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ .. 12**

1.1. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi tədqiqat obyekti kimi rolu ................ 12

1.2. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı üçün obyektiv şərtlər və dəstəklənməsində dövlətin rolu ......................................................................... 23

**II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ ..................... 29**

2.1. Azərbaycan Respublikasında müasir sahibkarlıq vəziyyətinin təhlili ............ 29

2.2. Sahibkarlıq fəaliyyətində risklərin azaldılması yolları və inkişafına təsir edən amillər ................................................................................................. 32

2.3. Sahibkarlıq fəaliyyətində işgüzar münasibətlər və sosial nəticələr ................ 43

**III FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATININ ƏN VACİB SAHƏSİ KİMİ İNNOVATİV SAHİBKARLIĞIN FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ ........................................................................ 50**

3.1. Azərbaycan iqtisadiyyatında innovasiya fəaliyyətinin mahiyyəti, təsnifatı və tətbiqi ................................................................................................. 50

3.2. İnnovativ layihənin qiymətləndirilməsi və onun sosial-iqtisadi nəticələrinin təkmilləşdirilməsi ...................................................................................... 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR ........................................................................ 68**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI ........................................... 71**

Cədvəllərin siyahısı ...................................................................................... 74

Şəkillərin siyahısı ......................................................................................... 74

# GİRİŞ

**Mövzunun aktuallığı:** Bu gün hər sahibkar dərk edir ki, müasir və qüdrətli Azərbaycanın inkişafı üçün Prezident cənab İlham Əliyevin liderliyi ilə bizi hələ bir çox mühüm vəzifələr gözləyir. Hal-hazırda İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın hərtərəfli inkişafında yeni bir mərhələ yaşanır. Dövlət başçısının gerçəkləşdirdiyi iqtisadi siyasətin başlıca xarakterik xüsusiyyətləri onun sosialistiqamətli olmağı, habelə bütün problemlərin həll edilməsində iqtisadi aspektin mövcud olmağının ön plana çəkilməsidir. Dövlət fərman, sərəncam və proqramlarının icrası ölkədə müşahidə edilən iqtisadi inkişafın sürətləndirilməsini uğurla şəkildə təmin edir, tərəqqidə özəl sektorun ümumi payını, rolunu gücləndirməklə, sahibkarlığın inkişaf etməsinə güclü təkan verir.

15 oktybar 2019-cu il tarixində Prezidenti İlham Əliyevin yanında keçirilən iqtisadi müşavirədə Prezidentin diqqət yetirdiyi başlıca məqamlardan biri məhz sahibkarlıq ilə əlaqədar olmuşdur.

Aparılan islahatların nəticələri beynəlxalq hesabatlarda öz əksini tapmışdır. Ölkəmiz “Doing Business 2020” adlı beynəlxalq hesabata daxil olan 190 ölkə arasında 34-cü sırada yer almışdır. Belə ki, ölkəmiz biznesə başlamaq üzrə 9-cu, əmlakın qeydiyyatına əsasən 44-cü, tikinti üçün icazələrin alınmasına dair 59-cu, kreditlərin alınmasına əsasən 1-ci, vergilərin ödənilməsinə dair 40-cı, müqavilələrin icrasına əsasən 28-ci və müflisləşmənin həll edilməsi indikatoruna əsasən 47-cidir. Belə nəticəyə gələ bilərik ki, “Doing Business 2020” hesabatında ölkəmizin yüksək nəticə əldə etmiş olduğu sahə kreditlərin əlçatanlığıdır. Həmin göstəriciyə əsasən kompleks biznes islahatları daxilində “Daşınar əmlakın yüklülüyü barədə” qanuna, Mülki Məcəlləyə olunan dəyişikliklərlə uyğunlaşdırmaların aparılması çox səmərə vermişdir.

Aparılmış kompleks islahatlar sayəsində “Doing Business”, başqa beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yaxşılaşdırılması ölkənin investisiya cəlbediciliyini gücləndirməklə qeyri-neft sektoruna sərmayə yatırımlarını asanlaşdırır. Azərbaycan təxminən 270 mlrd. dollardan çox sərmayə cəlb edərək hər bir nəfərə düşən sərmayəyə görə yerləşdiyi regionun lider ölkəsidir. 2019-cu

ilin ilk 9 ay müddətində qeyri-neft sektorunda kapitala istiqamətlənən vəsaitlər 9 % artaraq 6,3 mlrd. manatı üstələmişdir. Sərmayə cəlbinin çoxaldılması isə yeni iş yerlərinin təsis edilməsi, həmçinin əhalinin rifah halının yaxşılaşdırılması mənasını daşıyır.

Prezident cənab İlham Əliyevin uğurlu illər olaraq qiymətləndirdiyi 2019-2020-ci illərdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, özəl sektorun inkişafı istiqamətində sistemli islahatlar, tədbirlər davam etdirilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Elmi tədqiqatlarda və iqtisadi ədəbiyyatlarda sahibkarlığın inkişafı və inkişafın təkmilləşdirilməsi aspektləri ətraflı şəkildə mənimsənilmişdir. Sahibkarlıq fəaliyyətinin təşkili, investisiya ilə təmin olunması, vergi yükünün azaldılması, və s. məsələlər həm yerli, həm də xarici ölkə alimlərinin tədqiqat obyektinə çevrilmiş və mühüm tövsiyələr verilmişdir. Sahibkarlığın formalaşması, sosial-iqtisadi əhəmiyyətliliyi, risk-menecmenti haqqında, riskin idarə edilməsi məsələləri, innovasiya sahibkarlığı, sahibkarlığın inkişafında sosial amillərin rolu Abbasov S.A., Əhmədov T., Əliyev A.V., İbrahimov İ.H., Namazov N.İ., Niftullayev V.M., İsmayılov İ.H., Qasımova L.F., Qasımov F.H., Nəcəfov Z.M., Qasımov İ.H., Cəbiyev F. Q., Qurbanov N.Ə., Tağıyev A.H., Aslanzadə İ.A., Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X., Gerguri Sh., Rexhepi G., Ramadani V., Levie J., Autio E. A., Шумпетер Й. А., Чепуренко А. Ю., Яковлев А. А. və başqalarının əsərlərində tədqiq olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədini dünyada və Azərbaycan Respublikasında sahibkarlığın inkişafını və bu inkişafda sosial amillərin rolunu təhlil etmək təşkil edir.

Məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi tədqiqat obyekti kimi rolunun müəyyənləşdirilməsi;
- Azərbaycan Respublikasında sahibkarlığın inkişafının dəstəklənməsində dövlətin rolunun tədqiqi;
- Azərbaycan Respublikasında müasir sahibkarlıq vəziyyətinin təhlili;
- Sahibkarlıq fəaliyyətində risklərin azaldılması yollarının araşdırılması;

- Azərbaycan iqtisadiyyatının ən vacib sahəsi kimi innovativ sahibkarlığın qiymətləndirilməsi.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın əsas obyekti Azərbaycan Respublikasında sahibkarlığın xüsusi fəaliyyəti, predmetini isə sahibkarlığın inkişaf etməsində sosial amillərin rolunun öyrənilməsi təşkil edir.

**Tədqiqat metodları:** Dissertasiya mövzusunun tədqiqi və təhlili prosesində müqayisəli-statistik və sistemli təhlil, induksiya, deduksiya və digər metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Dissertasiya işinin yazılmasında mövzu ilə bağlı monoqrafiyalardan, elmi məqalələrdən, elmi-tədqiqat işlərindən, Dövlət Statistika Komitəsinin materiallarından, sahibkarlıq sahəsində keçirilən islahatlardan, qəbul edilmiş qanunlardan, rəsmi internet saytlarından və s. istifadə edilmişdir.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusunun mükəmməl şəkildə tədqiq və təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması məhdudiyyət təşkil edir. Xüsusilə də Azərbaycanda innovasiya sahibkarlığının inkişafı ilə əlaqədar tədqiqat aparılması üçün kifayət qədər elmi tədqiqat işləri, məqalə məlumatları və s. olmaması məhdudiyyət yaradır.

**Tədqiqatın elmi yeniliyi:** Dissertasiya işinin elmi yeniliyini sahibkarlığın inkişafında sosial amillərin qiymətləndirilməsi təşkil edir. Əsas elmi nəticələr aşağıdakılardan ibarətdir:

- sahibkarlığın sosial əhəmiyyəti, onun göstəriciləri ətraflı şəkildə əsaslandırılır və təkmilləşdirilməsi üçün istiqamətləri verilmişdir;

- sahibkarlıq fəaliyyətiylə onun sosial nəticələri arasındakı əlaqənin, bununla yanaşı, yeni iş yerləri, yoxsulluğun müəyyən çərçivə daxilində azaldılması və regionların sosial və iqtisadi inkişafı arasında vəhdətin hazırki vəziyyəti qiymətləndirilmiş, prespektiv mexanizmlərinin təkmilləşdirilməsi qeyd edilmişdir;

- sahibkarlıq strukturlarının iqtisadi, həmçinin sosial cəhətdən səmərəliliyi qiymətləndirilmişdir;

- innovasiya sahibkarlığının inkişafında dövlət dəstəyi qiymətləndirilmişdir;

- Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin hazırki vəziyyətinin təhlili aparılaraq növbəti illərində sahibkarlığın inkişafı üçün təkliflər verilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın başlıca praktiki əhəmiyyəti dissertasiya işində formalaşdırılmış nəticə və təkliflərin sahibkarlığın inkişafıyla əlaqədar həyata keçirilən tədbirlərdə istifadə oluna bilməsidir. Aparılmış tədqiqat və əldə olunan nəticələr sahibkarlığın inkişafı və bu inkişafda sosial amillərin rolu ilə əlaqədar gələcəkdə nəzərdə tutulan elmi tədqiqat işləri, qəbul ediləcək rəsmi sənədlər və s. üçün əsas ola bilər.

# I FƏSİL. AZƏRBAYCAN İSLAHATLARI KONTEKSTİNDƏ SAHİBKARLIĞIN ÖYRƏNİLMƏSİNİN METODOLOJİ ASPEKTLƏRİ

## 1.1. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi tədqiqat obyekti kimi rolu

Mürəkkəb sosial-iqtisadi fenomen kimi sahibkarlıq öz formalaşması və təkamülündə uzun bir yol keçmişdir. Sahibkarlıq nəzəriyyəsi əvvəlcə kapitalist münasibətlərinin digər Avropa ölkələrinə nisbətən daha erkən formalaşmağa başladığı İngiltərədə deyil, İngiltərədən daha sonra kapitalist inkişaf yoluna girmiş Fransa və Almaniyada meydana gəlmişdir. Hesab olunur ki, sahibkarlıq nəzəriyyəsinin mənşəyində: məşhur ingilis iqtisadçısı, bankir R. Kantillon (1680-1734) və fransız iqtisadçısı J.B. Sey (1760-1832) dayanır. Bir qayda olaraq, "sahibkarlıq" anlayışının elmi dövriyyəyə gətirilməsində prioritet R. Kantillon-dur. Kantillon mənfəət və sahibkarlıq gəlirləri arasındakı fərq, dövriyyədəki pul miqdarı ilə mal kütləsi arasındakı əlaqə və s. kimi bir sıra müddəaları formalaşdırmışdır.

Sahibkarlıq nəzəriyyəsi əsrin dörddə bir hissəsindən çox müddətdə Qərbdə inkişaf etmiş tədqiqat sahəsi olmuşdur. 1996-cı ildən bəri isə bu sahədə dünya mükafatı mövcuddur. Burada laureatlar - ABŞ, Böyük Britaniya, İtaliya, İsveç və bir sıra digər ölkələrdən bu sahədə ən çox istinad edilən elm adamları olmuşdur.

Sahibkarlıq fenomeni ilə bağlı tədqiqatların inkişafı iqtisadiyyatın hüdudlarından kənara çıxmışdır. Hal-hazırda humanitar elmlərin müxtəlif sahələrindən olan mütəxəssislər, məsələn, psixologiya, siyasətşünaslıq, fəlsəfə, sosiologiya, tarix və hətta ekologiya (və ya ekologiya) müxtəlif iş məsələlərində iştirak edir, bu sahədə araşdırmalarda fənlərarası bir istiqamətin formalaşmasına öz töhfələrini verirlər. Dünya və milli səviyyədəki bir çox universitetdə sahibkarlıq və kommersiya fəaliyyəti şöbələri yaradılmışdır ki, bunun əsasında peşəkar icmalarla birlikdə kiçik və böyük biznesin problemləri ilə bağlı konfranslar təşkil olunur və davamlı olaraq keçirilir. Elmi tədqiqatların nəticələri kolleksiyalarda və kifayət qədər yüksək təsir faktorlu beynəlxalq jurnallarda dərc olunur. 1996-cı ildə İsveç Kiçik Biznes Tədqiqatları Mərkəzi (Swedish Foundation for Small Business

Research), İsveç İqtisadi və Regional Böyümə Agentliyi ilə birlikdə sahibkarlıq və kiçik biznes sahəsində araşdırma üçün bir mükafat təsis etdi. 2009-cu ildə bu mükafat dəyişdirildi və "Qlobal Sahibkarlıq Araşdırma Mükafatı" olaraq tanındı. Zaman keçdikcə o, biznes sektorunda qeyri-rəsmi Nobel mükafatı kimi şöhrət qazandı. Beləliklə, sahibkarlığın hələ də ən çox müzakirə olunan elmi mövzulardan biri olduğu iddia edilə bilər. Biz bu məqalənin məqsədi kimi, birincisi, sahibkarlıq fenomenini klassik və müasir yanaşmalara uyğun olaraq sosioloji tədqiqat obyekti kimi təhlil etməyi, ikincisi, Azərbaycanda sahibkarlıq münasibətlərinin inkişaf tarixini təqdim etməyi əsas götürə bilərik.

Sahibkarlıq fərdi və ya kollektiv təsərrüfat subyektlərinin maddi və mənəvi malların istehsalı, paylanması, mübadiləsi və istehlakı sahələrində təşəbbüs fəaliyyətləri nəticəsində yaranan sosial münasibətlərin təzahür formasıdır. Bu, bir qayda olaraq, mənfəət (gəlir) əldə etmək məqsədi daşıyır və sahibkarın adına, riski altında və əmlak öhdəliyi altında həyata keçirilir. Sahibkarlıq fenomeninin tanınmış tədqiqatçıları (J. S. Mill, A. Marshall, J. Schumpeter, J. B. Say və başqaları) hesab edirdilər ki, bu fenomenin spesifikliyi, iqtisadi fəaliyyətdən fərqli olaraq yeni istehsal amillərinin birləşməsindən ibarətdir (Шумпетер Й. А., 2008: c. 12). Bundan əlavə, J. Schumpeter'in fikrincə, "yeni birləşmələr, bir qayda olaraq, köhnələrdən yaranmır və birbaşa yerlərini tutmur, ancaq yan-yana görünür və onlarla rəqabət aparır".

Sahibkarlıq sahəsindəki əsas mövzu öz və ya borc vəsaitinə sərmayə qoymaqla və işin nəticələrinə görə əmlak məsuliyyəti götürməklə iqtisadi riskləri bilərəkdən artırmaqla mənfəəti artırmağa çalışan bir iş adamıdır. Hal-hazırda elmi ictimaiyyət bir tərəfdən hökumət strukturları tərəfindən müəyyən edilən obyektiv şərtlərlə yanaşı, digər tərəfdən sahibkarlara ictimai münasibətdə innovativ düşüncə tərzi, özünə inam və özünə inam, sadiqlik, zəhmətkeşlik, nikbinlik, tez öyrənmək və yenidən hazırlamaq bacarığı kimi vacib subyektiv xüsusiyyətlərin sonuncu kompleksinin mövcudluğu ilə əlaqədar olaraq, sahibkarlıq fəaliyyətinin uğurlu həyata keçirildiyini təsdiqləyir. J. Schumpeter qeyd etmişdir: "Yeni birləşmələrin həyata keçirilməsi mürəkkəb bir məsələdir və yalnız müəyyən keyfiyyətləri olan

insanlar üçün əlçatandır”. Təsvir edilən xüsusiyyətlərin kifayət qədər tam dəstinə fərdi sahib olmaq ehtimalı az hesab olunur.

Əmək qabiliyyətli əhalinin yalnız 5-8% -i sahibkarlıqda uğur qazanmaq potensialına malikdir. Sahibkarların sosial təbəqəsinin oynadıqları ictimai rolun yüksək əhəmiyyəti fonunda mövcud məhdudiyyətlər - sosial ehtiyacları ən yaxşı şəkildə ödəmək üçün bu qrup təsərrüfat subyektinin istehsal, təşkilati, idarəetmə və innovativ potensialının qanuni açıqlanmasına töhfə verən iqtisadi və hüquqi şəraitin dövlət səviyyəsində inkişaf etdirilməsini zəruri edir.

İqtisadiyyatın innovativ inkişafında əsas rolu ilk sahibkarlar (J. Şumpeter terminologiyasında) və ya “dahilər” oynayır. Onlar daim iqtisadi fəaliyyət sahələrində “yeni birləşmələr” tətbiq etməklə növbəti iqtisadi bərpa başlanğıcını təmin edirlər. Bu bölmələr dünən mümkünsüz görünən müəyyən bir istiqamətdə hərəkət etmə ehtimalını sübut edən “buzbağlayanlar” -dır. Tələsik, bazar şərtlərini həssas hiss edən və çevik düşüncəyə sahib olan ilk sahibkarların istedadlı davamçıları izləyir. Qeyd etmək lazımdır ki, “dahilər” arasındakı müasir bir təşəbbüskar, öz növbəsində, yalnız lideri izləmək anlayışında hərəkət edə bilən (“müqayisə etmə”), lakin heç vaxt ondan yaxa qurtara bilməyən ardıcıllara xüsusi diqqət yetirmir. Bundan sonra, artıq sınaqdan keçmiş istehsal strategiyasını dərk edə və öz iş taktikasına uyğunlaşdıra bilən xeyli sayda subyekt yaranır. Son dalğada, “ilk” lər artıq gəlirin çox hissəsini aldığı üçün, minimum mənfəətdən razı qalan "təqlidçilər" prosesə daxil edilir.

Sahibkar qanunla qadağan edilməyən hər hansı bir iqtisadi fəaliyyət növü (maddi mal istehsalı, kommersiya vasitəçiliyi, qiymətli kağızlarla əməliyyatlar və s.) həyata keçirən fərdi və ya hüquqi şəxsdir. Sahibkarın əsas xüsusiyyətləri kimi aşağıdakıları ayırmaq olar: imkanlar və təşəbbüslər axtarmaq; risk iştahı; səmərəliliyə və keyfiyyətə diqqət yetirmək; məqsədyönlülük; məlumatlı olmaq istəyi; sistematik planlaşdırma və müşahidə; inandırmaq və işgüzar və şəxsi əlaqələr qurmaq bacarığı; müstəqillik və özünə inam və s. Sahibkarlıq aşağıdakı fərqli xüsusiyyətlərə malik olan xüsusi fəaliyyət növüdür: iş istiqamətləri və

metodlarını seçmək azadlığı; qərar qəbul etmənin müstəqilliyi; qəbul edilmiş qərarlar və onların nəticələri, əlaqəli risk üçün məsuliyyət və s.

Sahibkarlıq subyektləri fərdi şəxslər, fiziki şəxslər qrupları (səhmdar cəmiyyətləri, kooperativlər, ortaqlıqlar və s.) və dövlət ola bilər. Sahibkarlıq obyektləri istehsal, vasitəçilik əməliyyatları, o cümlədən qiymətli kağızlarla əməliyyatlarla əlaqəli müxtəlif iqtisadi fəaliyyət növləri ola bilər. Sahibkarlıq mühiti bir çox amillərlə müəyyən edilir, bunlardan ən başlıcası:

- siyasi, sosial və hüquqi sabitlik, əlverişli vergi və kredit rejimi;
- istehsalın bütün əsas amillərinin, o cümlədən torpaqların bazar dövriyyəsinə daxil edilməsi;
- yeni mal və ya xidmət istehsalçıları üçün bazara sərbəst daxil olmaq imkanı; sənaye, institusional və bazar infrastrukturlarının inkişafı;
- sahibkarlıq fəaliyyəti ilə bağlı əlverişli ictimai rəy.

Sahibkarlıq fenomeninin sosioloji tədqiqat obyekti kimi ən tam açıqlanması "davranış" və "fəaliyyət" kateqoriyalarından istifadə etməklə mümkündür. Sahibkar davranış, sahibkarın istifadə etdiyi iqtisadi alternativ seçim prinsiplərini əks etdirən, şüurlu, sosial və şəxsən əhəmiyyətli hərəkətlərinin məcmusudur. Bir sahibkarın fərdi hərəkətləri çox müxtəlif ola bilər, lakin bunlar xarici sosial mühit tərəfindən fərqlənən xüsusi bir özəlliklə birləşir, fərqlənir və həm sahibkarlıq davranışının, həm də təsərrüfat subyektinin özü üçün xarakterik hala gəlir (Шумпетер Й. А., 2007: c.34).

Sahibkar davranış açıq innovativ komponentləri olan aktiv iqtisadi davranış növüdür. Sahibkar davranışının səmərəliliyi iqtisadi fəaliyyət prosesində ideyaların həyata keçirilməsinə yönəlmiş iş adamının həyata keçirdiyi tədbirlərin effektivliyi ilə müəyyən edilir (Levie J., Autio E. A., 2008: p.17).

Ümumiyyətlə, XX əsrdə Şimali Amerika və Qərbi Avropa tədqiqatçıları sahibkarlıq fenomenini anlamaq baxımından çox irəliləyişlər əldə etmişdir. Bu dövrdə sahibkarın şəxsiyyətini, fərqli cəhətlərini və davranış xüsusiyyətlərini öyrənməyə başlayan tədqiqatçılar tədricən təhlil dairəsini genişləndirmişlər. Bu gün bu araşdırma populyarlıq qazanan insan inkişafı konsepsiyasına uyğun olaraq

aparılır, fəlsəfi, sosial, iqtisadi, və institusional inkişaf nəzəriyyələrini özündə birləşdirir. Bu baxımdan, professor P. Reynolds (1991) ictimai elmlərdə sahibkarlığın öyrənilməsinin əsas hissə olması çərçivəsind dörd əsas istiqaməti müəyyənləşdirmişdir (Чепуренко А. Ю., Яковлев А. А., 2013: c.53-55):

- həyat yolunun mərhələsi ilə əlaqəli xüsusi problemlərin araşdırılması;

- sosial şəbəkələrin sahibkarlara resurslara çıxış, təcrübə, gizli biliklərin dövriyyəsi və nüfuz və etimadın təmin edilməsində rolunun təhlili;

- böyük şəhərlərdə (əslində sosial şəbəkənin müəyyən bir forması) etnik azlıqlar əsasında yaranan "qapalı" icmalarda sahibkarlığın uğuru amili kimi etnik mənsubiyyətin öyrənilməsi;

- əhali ekologiyası çərçivəsində aparılan tədqiqatlar, yəni sahibkarlıq firmalarının populyasiyalarında (çoxluqlarda) "təbii seleksiya" nın necə və niyə baş verdiyi, niyə bəzilərinin sağ qalması və inkişaf etməsi, digərlərində çürümə baş verməsi təhlilidir.

Son illərdə nəşrlərin xeyli hissəsi sahibkarlığın startı fenomeninə həsr edilmişdir. Burada tanınan liderlər B. Gartner (1988), P. Reynolds (1997), M. Minitti (Minniti, Koellinger, Schade, 2007), S. Wennekers və R. Turik (Wennekers et al., 2005) və digərləridir, və son illərdə bu sahədə "Qlobal Sahibkarlıq Monitoru" ("Global Entrepreneurship Monitor" GEM) beynəlxalq müqayisəli tədqiqatın kəmiyyət məlumatları əsasında aparılmış işlər getdikcə daha çox üstünlük təşkil etmişdir. Bu məlumatlar sahibkarlığın inkişafı üçün milli şəraitin müxtəlif aspektlərinin müxtəlif ölkələrdə sahibkarlıq başlanğıcının intensivliyinə təsirini, habelə motivasiya xüsusiyyətlərinin yeni müəssisələrin yaradılması və inkişafı strategiyalarına təsirini, aktiv sahibkarlıq fəaliyyətindən imtina səbəblərini və s. müqayisə etməyə imkan verir. Həmçinin yeni sahibkarlıq quruluşlarının strategiyalarının sahibkarlıqda uzunmüddətli bir proses kimi rolunu öyrənən araşdırmaları da qeyd etmək lazımdır (Gartner, 1990, Shane, 2003).

İnkişaf etməkdə olan bir tədqiqat sahəsi də sahibkarlıqda "kəşf"-in (entrepreneurial discovery) rolu mövzusudur. Bu cəhət Cozef Şumpeterin əsərlərinə aiddir, lakin 2000-ci illərin əvvəllərində S.Şane və S. Venkataramanın

təşəbbüskar imkanın rolu - onun “kəşfi” və sonrakı “istismarı” na həsr olunmuş əsərləri bu istiqamətdə araşdırmalara yeni bir təkan verdi.

Müasir dünyada genişmiqyaslı miqrasiya prosesləri kontekstində tədqiqatçıların diqqətini cəlb edən digər əsas mövzu, özünəməxsus aktivləri, təsir dairələri və bazarı tutma strategiyaları ilə etnik sahibkarlıqdır (Waldinger və başqaları, 2004; Portes, 1995). Əslində etnik sahibkarlıq sosial şəbəkələrin mühüm rolunun təzahürlərindən biridir, sahibkarlığın inkişafına təsirinin təhlilinə həsr olunmuş geniş ədəbiyyatdır.

Əlbətdə ki, sahibkarlığın inkişafının idarəetmə aspektləri - qərar qəbuletmə orqanlarının, iyerarxiyanın, mərkəzləşdirilmiş və mərkəzləşdirilmiş formaların rolu ətraflı şəkildə öyrənilir (Johannisson, 1984; Lumpkin, Dess, 1996; Westhead, Ucbasaran, Wright, 2005).

Nəhayət, ətraf mühitin - sosial, ictimai, institusional kontekstlərin-sahibkarlığa təsirinin öyrənilməsini əhatə edən araşdırmalar getdikcə əhəmiyyətli bir mövqe tutur. Belə ki, B. Bygrave (Bygrave, Zacharakis, 2007), R. Moss Kanter (Moss Kanter, 2009), M. Granovetter (Granovetter, 1994) və digər müəlliflərin əsərləri xüsusilə buna həsr olunmuşdur.

Ən çox sitat gətirən Amerika iqtisadçılarından biri, sahibkarlıq professoru və Biznes Məktəbindəki Berkley Sahibkarlıq və İnnovasiya Mərkəzinin akademik direktoru, Nyu York universitetində həm baş iqtisadçı, həm də tədqiqatçı olan W. Baumolun tədqiqatlarına nəzər yetirsək görərik ki, tədqiqat maraqları çox genişdir - o, iqtisadi artım, sahibkarlıq və innovasiya, sənaye bazarları nəzəriyyəsi və iqtisadi tənzimləmə nəzəriyyəsi sahələrində araşdırmaların inkişafına mühüm töhfə vermişdir.

2003-cü ildə professor Baumol “Sahibkara ümumi qəbul edilmiş iqtisadi nəzəriyyədə əsas rolu vermək üçün göstərdiyi davamlı səylərə görə,sahibkarlığın mahiyyətinin nəzəri və empirik araşdırmaları və müəssisələrin əhəmiyyəti və təşəbbüskar istedadların paylanması üçün stimulların təhlilinə” Ümumdünya Sahibkarlıq Araşdırma Mükafatına layiq görülmüşdür.

2013-cü ildən bəri professor F. Welter Bonndakı Mittelstand Tədqiqatları İnstitutunun prezidenti olmuşdur. 1993-2006-cı illərdə Reyn-Vestfaliya İqtisadi Tədqiqatlar İnstitutunun (Essen, Almaniya) əməkdaşı, 2005-2008-ci illərdə Siegen Universitetinin professoru, 2008-2012-ci illərdə Avropadakı sahibkarlıq tədqiqatlarının aparıcı mərkəzlərindən biri olan İsveçdə Beynəlxalq Biznes Məktəbində professor olmuşdur. F. Velterin əsas tədqiqat maraqları transformasiya iqtisadiyyatı, qadın təşəbbüskarlığı, sahibkarlığı və kiçik biznesi dəstəkləmək siyasəti, sahibkarlıq mövzusunda araşdırmalarda mete nəzəri problemlərin öyrənilməsi sahəsindədir. Qeyri-sabit, siyasi və hüquqi təsisatları olan, Qərbdən fərqli fərqli iş normaları və adətləri olan ölkələrdə sahibkarlıq araşdırmalarında bu qədər zəngin təcrübəyə əsaslanaraq, F. Velter sahibkarlıq praktikasının dərk edilməsində kontekstlərin mərkəzi rolu, mənfi institusional dəyişikliklərin sahibkarların davranışlarına potensial özünü təminetmə təsiri barədə qənaətə gəlmişdir.

Beləliklə, 1990-cı illərdə bir sıra MDB ölkələrinin təcrübəsini təhlil edərək, sahibkar davranışının "pis dairələri" anlayışını formalaşdırdı. Bu konsepsiyaya görə, tənzimləmə normaları və təcrübələri işgüzar cəmiyyətdə formalaşmış qeyri-rəsmi norma və qaydalardan fərqli olduqda, biznes ardıcıl olaraq kölgə iqtisadiyyatında daha da dərinləşə bilər ki, bu da dövlət tərəfindən artan repressiyalarla nəticələnə bilər. Bununla birlikdə, xüsusilə qadın təşəbbüskarlığına dair araşdırmalarında, Welter sahibkar davranışı ilə onun həyata keçirildiyi kontekst arasındakı tərs əlaqəyə diqqət çəkdi, məsələn, bir sıra Orta Asiya ölkələrində qadınların sahibkarlığa cəlb edilməsi ilə oynanılan rol, bu, ailədə daha müstəqil mövqe tutmağı və nəticədə bu cəmiyyətlərdə tədricən dəyişdirilməsini təmin edir.

Məşhur Amerika iqtisadçısı İozef Şumpeter "İqtisadi inkişafın nəzəriyyəsi" adında olan kitabında sahibkarlıq fəaliyyətini kapitalizm iqtisadiyyatında iqtisadi artımın təmin olunmasında başlıca hərəkətverici qüvvə olaraq hesab etmişdir.

1974-cü ildə Nobel mükafatı almış F. Xayekin fikrincə, sahibkarlığın mahiyyəti bu qeyd edilənlər ilə məhdudlaşmır. Xayek, sahibkarlığı bu və yaxud

başqa fəaliyyət növü olaraq deyil, yeni iqtisadi imkanların axtarılması, öyrənilməsi kimi müəyyən edirdi.

Bəzi iqtisadçılar "sahibkae" və "sahibkarlıq fəaliyyəti" terminlərini fərqli istiqamətlərdən izah edirlər.

1. Riçard Kantilyon: sahibkar-risk mühitində fəaliyyət göstərən insandır;

2. Bodo: sahibkar - müəssisədə istehsalatı planlaşdıran, təşkil edən və bunlara nəzarət edən , bütün məsuliyyəti öz üzərinə götürən şəxs;

3. Frensis Uoker: sahibkar-öz təşkilatçılıq qabiliyyətiylə mənfəət, faiz əldə edən şəxs olduğunu eyirdi və s. (Чепуренко А. Ю., Яковлев А. А., 2013: с. 61).

Qərb nəzəriyyələrini yerli iş təcrübəsində tətbiq etməyin mürəkkəbliyi sosial-mədəni kontekstdə müəyyən edilir. Postsovet məkanında rəsmi sahibkarlıq tarixinin 1985-ci ildə başladığı hesab olunur. SSRİ ideologiyası sahibkarlığı sosialist bir cəmiyyət üçün düşmən hadisəsi olaraq görmüş və ləğv edilməyə başlamışdır. Bu gün isə qəbul olunur ki, SSRİ-də rəsmi və qeyri-rəsmi sahibkarlıq mövcud olmuşdur. Eyni zamanda, "sahibkarlıq" termini sosialist doktrinasına ideoloji zidd olduğu üçün istifadə edilməmişdir. Rəsmi sahibkarlıq "Sovet vətəndaşlarının iqtisadi təşəbbüsü" adlanırdı və cəmiyyətə fayda gətirən kollektiv fəaliyyət idi. Qeyri-rəsmi sahibkarlıq fəaliyyəti böyük sosial-iqtisadi problemləri həll etməyən və buna görə dövlət dəstəyi və ictimai rəğbət almamış vətəndaşlar tərəfindən həyata keçirilmişdir.

SSRİ-də sahibkarlıq sahəsində tədqiqatlar aparılmamışdır. İdeoloji səbəblərə görə bu iqtisadi fəaliyyət iqtisadi mühitin mənfi bir hadisəsi hesab olunurdu. 1980-ci illərin ikinci yarısı - 90-cı illərin əvvəlləri ölkədə təşəbbüskar mövzuların tərcümə edilmiş nəşrləri fəal şəkildə nəşr olunmağa başladı. Belə ki, R. Kantillon, F. Kene, A. Smith, T. Veblen, F. Hayek, J. Sumpeter və başqaları kimi sosial-iqtisadi düşüncənin klassikləri Sovet oxucusu üçün yenidən kəşf edildi. Bununla birlikdə, bir çox biznes anlayışı bəlli deyildi. Qərb sahibkarlığı Sovet vətəndaşları tərəfindən sosial öhdəliklərdən və mədəni təsirlərdən azad olan iqtisadi fenomen kimi qəbul edilirdi. 1990-cı ildən bəri isə Sovet İttifaqında əsas fikir artıq

“sosializmi inkişaf etdirmək” deyil, demokratiya qurmaq və bazar iqtisadiyyatı inkişaf etdirmək olmuşdur.

Beləliklə, sahibkarlıq fəaliyyətinin vacib mahiyyətini müəyyən edən nəzəri və metodoloji quruluşlarda sahibkarlığın məqsədi mallara, işlərə və xidmətlərə fərdi və kollektiv ehtiyacları ödəməklə mənfəət (gəlir) əldə etmək olduğu düşüncəsi köklənmişdir. Sahibkarlığın sosial funksiyası hər qabiliyyətli fərdin iş sahibi olmasıdır, fərdi istedad və imkanlarını göstərə bilməsidir. Bu funksiya getdikcə cəmiyyətin yeni bir təbəqəsinin - müstəqil iqtisadi və iqtisadi fəaliyyətə meylli, ətraf mühitin müqavimətini dəf edə və məqsədlərinə nail ola bilən insanların formalaşmasında ifadə olunur.

Mövzunun bu bölməsində eləcə də, sahibkarlığın inkişafı ilə bağlı bir neçə məqama toxunmaq gərəklidir. Belə ki, sənayeləşmiş ölkələrdə sahibkarlığın inkişafında həlledici amil ona dövlət dəstəyi hesab olunur.

Biznesin stimullaşdırılması çoxşaxəlidir, lakin bütün hallarda, ilk növbədə, onun inkişafı üçün əlverişli iqtisadi və hüquqi sahənin yaradılmasını nəzərdə tutur.

Bütün inkişaf etmiş ölkələr inzibati, hüquqi və iqtisadi (birbaşa və dolayı) dəstəyin müxtəlif metod və formalarından istifadə edirlər: sahibkarlıq müəssisələrinin işlərini idarə edən dövlət strukturlarının yaradılması; belə müəssisələrə maliyyə yardımı proqramları; vergi güzəştləri; kiçik firmalar tərəfindən sifarişlərin alınmasında dövlət yardımı; idarəetmə və texniki yardımın göstərilməsi; antimonopoliya tənzimlənməsi.

Stimullaşdırma mexanizmi, ilk növbədə, kredit proqramlarının, birbaşa və zəmanətli kreditlər, güzəştli subsidiyalar, vergi güzəştləri və digər maliyyə və iqtisadi dəstək formalarının işlənib hazırlanmasını və gerçəkləşdirilməsini təmin edən qanunvericilik aktlarını özündə cəmləşdirir.

İnkişaf etmiş ölkələrdə sahibkarlıq müəssisələri vasitəsi ilə yenilikləri dəstəkləmək üçün xüsusi proqramlar hazırlanmışdır. Bu proqramlar çərçivəsində istiqamətlər, ölçülər və maliyyələşmə mənbələri müəyyənləşdirilir.

İqtisadiyyatı inkişaf etmiş ölkələrin xarici təcrübəsi göstərir ki, sahibkarlıq milli iqtisadiyyatda ən vacib funksiyaları yerinə yetirir.

Ötən əsrin 70-ci illərində belə bir formula məşhur olmuşdur -"Kiçik gözəldir!

**Cədvəl 1: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| Göstəricilər | 2018 | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| **Sahibkarlıq subyektlərinin ümumi sayı** | **244883** | **26389** | **218494** |
| Mikro sahibkarlıq subyektlərinin sayı | 237815 | 19321 | 218494 |
| Kiçik sahibkarlıq subyektlərinin sayı | 4930 | 4930 | - |
| Orta sahibkarlıq subyektlərinin sayı | 2138 | 2138 | - |

**Mənbə:** http://www.e-qanun.az/framework/41048, https://www.stat.gov.az/source/entrepreneurship/ , materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 1-dən göründüyü kimi Azərbaycanda Sahibkarlıq subyektlərinin ümumi sayı 2018-ci ildə 244883 olmuşdur. Bu göstəriciyə əsasən demək olar ki, 2017-ci illə müqayisədə 75280 ədəd artma baş vermişdir. Mikro sahibkarlıq subyektlərinin sayı 2018-ci ildə 237815, kiçik sahibkarlıq subyektlərinin sayı isə 4930 olmuşdur.

**Cədvəl 2: Yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı**

| Göstəricilər | 2018 | | |
|---|---|---|---|
| | Cəmi | o cümlədən | |
| | | Hüquqi şəxslər | Fərdi sahibkarlar |
| **Yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı** | **83346** | **11958** | **71388** |
| Yeni yaradılmış mikro sahibkarlıq subyektlərinin sayı | 83071 | 11738 | 71333 |
| Yeni yaradılmış kiçik sahibkarlıq subyektlərinin sayı | 233 | 179 | 54 |
| Yeni yaradılmış orta sahibkarlıq subyektlərinin sayı | 42 | 41 | 1 |

**Mənbə:** https://www.stat.gov.az/source/entrepreneurship/, materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Cədvəl 2-də isə yeni yaradılmış mikro, orta və kiçik sahibkarlıq subyektlərinin sayı göstərilmişdir. Belə ki, burada göstərilmiş məlumatlara əsasən

demək olar ki, yeni yaradılmış sahibkarlıq subyektlərinin ümumi sayı 2018-ci ildə 83346 olmuşdur. Bunlardan 11958-i hüquqi şəxslər, 71388-i isə fərdi sahibkarların payına düşür.

Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramına görə, dünya iqtisadiyyatında kiçik müəssisələrin sayı bütün müəssisələrin ümumi sayının 95% -dən çoxdur. İşləyənlərin 60% -dən çoxu ÜDM-də payı 50% -ə çatır. Bunlar dünya üzrə orta göstəricilərdir.

Ayrı-ayrı ölkələrdə: Yaponiyada kiçik və orta sahibkarlığın payı şirkətlərin sayının 99,6% -ni, ÜDM-in 55% -ni, sənayedə işləyənlərin 80%-ni təşkil edir.

ABŞ-da ÜDM-in 50% -dən çoxu, yeniliklərin yarısından çoxu, milli işçi qüvvəsinin 2/3-dən çoxu kiçik biznesə aiddir.

Azərbaycanda isə kiçik sahibkarlığın sektorlar üzrə mövqeyi ticarətdə 64 faiz, nəqliyyatda 10,7 faiz, restoran və mehmanxana xidmətində 6,6 faiz, sənayedə 2,24 faiz, aqrar sahədə 2 faiz, tikintidə 0,7 faiz, başqa sahələrdə isə 13 faiz təşkil edir.

Ölkəmiz üçün kiçik biznesin inkişafı ən vacib vəzifələrdən biridir. Kiçik biznes işsizliyin azaldılmasına, bazarı yerli mal və xidmətlər ilə doldurmağa kömək edir, rəqabət mühiti formalaşdırır, ÜDM-yə və ölkənin büdcəsinə təsir göstərir. Ən başlıcası, kiçik biznes cəmiyyətin sabitliyinin təməli kimi orta təbəqənin formalaşması üçün bir platformadır.

Böyük müəssisələr kiçik firmalar kimi həssas deyillər və iqtisadiyyatdakı hər hansı bir dalğalanmaya və ya dəyişikliklərə o qədər tez cavab vermirlər. Təsadüfi deyil ki, Almaniya, ABŞ və bir çox inkişaf etmiş kapitalist ölkələrinin hökumətlərinin siyasətində kiçik biznesə yardım xüsusi yer tutur.

Kiçik müəssisələr iqtisadi şəraitdəki dəyişikliklərə, iqtisadiyyatın sektorlarında mənfəət nisbətinin düşməsinə və ya artmasına böyük şirkətlərə nisbətən daha tez adaptasiya olurlar. Bu baxımdan, kiçik müəssisələr iqtisadiyyatdakı ümumi vəziyyətin bir növ göstəricisinə çevrilmişdir deyə bilərik. Kiçik və orta ölçülü obyektlər bir sıra ölkələrdə iri şirkətlərə nisbətən saylarına, həmçinin göstərilən xidmət, istehsal olunan məhsullara əsasən üstün mövqe tutur. Kiçik ölçülü müəssisələr istehsalata əlavə olaraq ictimai əməyi cəlb edirlər, bu da

milli gəlirin artmasına və yeni dəyərin yaranmasına gətirib çıxan amillərdən hesab olunur.

## 1.2. Azərbaycan Respublikasında sahibkarlığın inkişafı üçün obyektiv şərtlər və dəstəklənməsində dövlətin rolu

Məlumdur ki, sahibkarlıq iqtisadiyyatın inkişaf sistemində ən vacib bağlantıdır. Bununla əlaqədar olaraq, müəyyən bir ölkədə milli iqtisadiyyatın səmərəliliyi sahibkarlıq institutunun nə dərəcədə inkişaf etməsindən asılıdır.

Bütün səviyyələrdə sahibkarlıq mühitinin yaradılmasında aparıcı rol iqtisadi strategiya və siyasət hazırlayan, qanunvericilik bazası yaradan, daxili və dünya bazarlarında milli istehsalçıların rəqabət üstünlüklərini reallaşdırmaq üçün şərait və mexanizmlər yaradan dövlətə məxsusdur.

Sahibkarlığın inkişafı üçün sistematik dövlət tənzimlənməsi və dəstəyi-ölkənin davamlı iqtisadi və sosial inkişafı kontekstində milli sahibkarlığın qurulması və müstəqil inkişafı məqsədilə əlverişli şərait yaratmağa yönəlmiş iqtisadi, hüquqi və inzibati xarakterli ümumi və xüsusi tədbirlər məcmusu zəruri hesab olunur.

İqtisadiyyatın fəaliyyət göstərməsi üçün qanunvericilik və digər hüquqi şərtlərin yaradılması dövlətin iqtisadiyyatın inkişafı şəraitində mərkəzi funksiyası hesab olunur.

Dövlət sahibkarlığın inkişafında böyük rol oynayır. Yuxarıda qeyd edilirdi ki, dövlət dolayı yolla hərəkət edir, eyni zamanda müəssisələrin ölkənin qida mənbəyi olduğunu unutmamaq lazımdır. Buna görə də hər tərəfdən sahibkarları dəstəkləmək vacib hesab olunur.

Sahibkarlığa dövlət dəstəyi sisteminə aid etmək olar:

1. sahibkarlığın dəstəklənməsinə və inkişafına yönəlmiş qanunvericilik və digər hüquqi aktlar yaratmaq;

2. bu sahədə dövlət siyasətinin gerçəkləşdirilməsini təmin edən və sahibkarlıq sahəsini tənzimləyən dövlət aparatı;

3. maliyyə dəstəyi: kredit güzəştləri - uzun müddətə minimum faiz dərəcəsi ilə kreditlər vermək lazımdır; vergi güzəştləri - müəyyən müddətə müəyyən vergi növlərindən azad olmaq və ya müəyyən edilmiş dərəcədən az ödəniş etmək lazımdır; subsidiyalar; amortizasiya müavinətləri;

4. maddi-texniki təminat: texnologiya və avadanlıq icarəsinin müxtəlif formaları;

5. bazar infrastrukturunun yaradılması: yerli yarmarkalar; avadanlıq və texnologiya bazarları;

6. dövlət və bələdiyyə qarantiyaları;

7. dövlət sahibkarları həvəsləndirməlidir.

Cəmiyyətdə və iqtisadiyyatda müasir şəraitdə sahibkarlığa dövlət dəstəyi praktikası dondurulmuş bir xarakterə malik olmamalıdır. Bu sistem yeni müəssisələri və kiçik müəssisələrin özləri inkişaf ehtiyaclarını əks etdirərək, daim inkişaf etdirilməli və təkmilləşdirilməlidir.

Sahibkarın əsas fərqləndirici xüsusiyyəti müəyyən bir zehni işin sistematik şəkildə həyata keçirilməsidir: mövcud bazar vəziyyətinin təhlili, dinamikasının proqnozlaşdırılması, vəziyyətdəki dalğalanmaların oxşar və ya əlaqəli mal növlərinə təsirinin öyrənilməsi. Nəticədə, bazarın təsirli tələbi artırmağın mümkün olduğu sektoru görməlidir.

Sahibkarlığın inkişafı yalnız zəruri sosial, iqtisadi, hüquqi, siyasi və digər şərtlərin formalaşdırılması üçün dövlətin siyasi iradəsi ilə mümkündür. Bu problemin həlli yalnız dövlət, regional və bələdiyyə səviyyələrində kiçik sahibkarlığı dəstəkləmək və inkişaf etdirmək üçün ixtisaslaşdırılmış, inteqrasiya olunmuş bir infrastruktur yaratdıqda və bu işə lazımi maliyyə, təşkilati və digər mənbələr ayırdıqda mümkündür.

Kiçik  sahibkarlığın formalaşması üçün müəyyən iqtisadi, sosial, hüquqi və digər şərtlər gərəklidir. Burada iqtisadi şərtlər dedikdə:

1. malların tədarükü və onlara tələbat;

2. müştərilərin ala biləcəyi mal növləri;

3. alış-verişə xərclənə biləcək pulun miqdarı;

4. işçilərin əmək haqqının səviyyəsinə təsir edən iş yerlərinin çoxluğu və ya çatışmazlığı (yəni mal almaq qabiliyyətinə görə) nəzərdə tutulur.

İqtisadi vəziyyətə pul vəsaitlərinin mövcudluğu və əlçatanlığı, qoyulmuş kapital üzrə gəlir səviyyəsi, biznes əməliyyatlarını maliyyələşdirmək üçün sahibkarlara kredit təşkilatlarının verməyə hazır olduqları borc vəsaitlərinin miqdarı təsir göstərir. Bütün bunlar bazar infrastrukturunu təşkil edən, sahibkarlarla işgüzar münasibətlər qura bilən və biznes əməliyyatları aparan bir çox təşkilatlar tərəfindən həyata keçirilir.

Bu təşkilatlara aşağıdakılar daxildir:

1. maliyyə xidmətləri göstərən banklar;

2. xammal, materiallar, yarımfabrikatlar, komponentlər, enerji, maşın və avadanlıqlar, alətlər və s. tədarükü təşkil edən tədarükçülər;

3. malların istehlakçıya çatdırılması üçün xidmətlər göstərən topdansatış və pərakəndə satış xidmətləri;

4. peşəkar hüquqi, mühasibat və vasitəçi xidmətlər göstərən ixtisaslaşdırılmış firma və təşkilatlar;

5. əməyin seçimi ilə məşğul olan məşğulluq agentlikləri;

6. mütəxəssis işçilər hazırlayan təhsil müəssisələri;

7. digər qurumlar (reklam, nəqliyyat, sığorta və s.);

8. rabitə və məlumat ötürmə vasitələri.

Kiçik müəssisələrin formalaşması üçün sosial şərtlər iqtisadi olanlarla sıx bağlıdır. Öncəliklə, bu-müştərilərin müəyyən zövqlərə, tələblərə və dəblərə cavab verən məhsullar almaq istəyidir. Eləcə də, müxtəlif mərhələlərdə ehtiyaclar fərqli ola bilər. Ehtiyacların formalaşmasında mühüm rol isə sosial-mədəni mühitdən asılı olaraq mənəvi və dini normalar tərəfindən yerinə yetirilir. Bu da istehlakçıların həyat tərzinə və dolayı yolla mallara olan tələblərinə birbaşa təsir göstərir. Sosial şərtlər insanın işə münasibətinə, əmək haqqı və iş şəraiti miqdarına münasibətinə təsir göstərir.

Ümumilikdə sahibkar fəaliyyətindən məmnunluq almalıdır. Belə ki, o, işçiləri ilə əlaqəli sosial problemlərin həllində (sağlamlığını qorumaq və s.) iştirak edir.

Kiçik biznesin formalaşmasında mühüm rol kadr hazırlığı, yenidən hazırlıq və ixtisasartırma ilə əlaqədardır. Burada - müasir biznes aparmaq, təlim və yenidən hazırlıq, xarici ölkələrdə təcrübə keçmək, sahibkarlar yetişdirmək üçün müəllim heyəti hazırlığı və ixtisasartırma kurslarının təşkili, kiçik biznes işçilərinin peşə seçimi və yönləndirilməsi aparan məsləhət mərkəzləri şəbəkəsinin yaradılması və s.-dən söhbət gedir.

İstənilən sahibkarlıq fəaliyyəti müvafiq hüquqi mühit çərçivəsində həyata keçirilir. Buna görə sahibkarlıq fəaliyyətini tənzimləyən qanunların mövcudluğunu özündə ehtiva edən, onun inkişafı üçün ən əlverişli şərait yaradan zəruri hüquqi şərtlərin yaradılması çox vacibdir. Qanuni müddəalar aşağıdakıları təmin etməlidir:

1. kiçik müəssisələrin açılması və qeydiyyatı üçün sadələşdirilmiş və sürətləndirilmiş prosedur;

2. sahibkarların dövlət bürokratiyasından qorunması;

3. sənaye sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, ölkə sahibkarlarının xarici ölkələrin sahibkarları ilə birgə fəaliyyətlərinin inkişafı istiqamətində vergi qanunvericiliyinin təkmilləşdirilməsi.

Bura həmçinin kiçik sahibkarlığa regional dəstək mərkəzlərinin yaradılması, uçot metodlarının və statistik hesabat formalarının təkmilləşdirilməsi daxildir. Kiçik sahibkarlığın, o cümlədən mülkiyyət hüququ və müqavilə öhdəliklərinə riayət olunması ilə bağlı hüquqi təminatlar barədə qanunvericilik təşəbbüslərinin hazırlanması xüsusi əhəmiyyət kəsb edir. Buna misal olaraq ABŞ-ın kiçik biznesində uzun illərdir qüvvədə olan qanunlar sistemini göstərmək olar.

Azərbaycanın sosial-iqtisadi inkişafının əsas məqsədlərindən biri iqtisadi imkanların səviyyəsinin müəyyən edilməsi üçün vacib olan və sosial-iqtisadi sabitlik üçün şərait yaradan sahibkarlığın inkişafıdır.

Ölkəmizdə iqtisadi artım üçün biznesin genişləndirilməsi vacibdir. Belə ki, kiçik və orta sahibkarlıq (KOS) sektorunun rol oynadığı bir iqtisadiyyat, çox üstünlük əldə edir:

1. İqtisadiyyatın manevr qabiliyyəti artır - bazarın əksər iştirakçıları (KOS) daxili mühitə sürətli və effektiv uyğunlaşma ilə xarakterizə olunur;

2. İqtisadiyyatın sabitliyi artır, buna görə risklər çox sayda şirkət arasında bölüşdürülür, məhdud sayda bazar subyektlərindən asılılıq azalır;

3. Ölkənin ayrı-ayrı bölgələrinin iqtisadi genişlənməsi sabitləşir (Гурбанова, Н. К., 2018).

**Şəkil 1: Dövlətin sahibkarlıq fəaliyyətinə təsiri**




**Mənbə:** http://unec.edu.az/application/uploads/2015/05/, materialları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Son illərdə Azərbaycanda KOS-ların inkişafında uğur qazanmaq məqsədilə bir çox addımlar atılmışdır. Bunlardan biri də KOS-lar üçün müxtəlif mənbəli

informasiyalara çıxış əldə edilməsinə kömək edən onlayn məlumat portalının yaradılmasıdır.

Azərbaycanda KOS subyektlərinə müxtəlif xidmətlər göstərirlər ki, bu da hal-hazırda müxtəlif dövlət orqanları səlahiyyətləri çərçivəsində baş verir. Bununla birgə, beynəlxalq təcrübəyə nəzər yetirsək görərik ki, KOS subyektlərinə belə xidmətlərin vahid bir mərkəzdən göstərilməsi onların müvafiq xidmətlərdən daha da səmərəli istifadəsinə və nəticə etibarı ilə inkişafına daha da yaxşı imkan yaradır. Bununla bağlı olaraq yaradılmış KOS agentliyinin fəaliyyət göstərməsi sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına şərait yaratmış, bu sahədə aparılan islahatların təsir gücünün artırılmasına gətirib çıxarmışdır.

Hal-hazırda həyata keçirilən islahatlar yeni mərhələyə qədəm qoyur. Belə ki, sosial və iqtisadi sahələrdə aparılan islahatlar indi kadrlar sahəsini də əhatə edir. Ölkə başçımız tərəfindən bir çox vəzifələrə gənc,savadlı və enerjili kadrların təyin olunması bunu təsdiq edir. Dövlət başçısı çıxışlarında da qeyd edir ki, müasir dövrün yeni çağırışlarına cavab verən kadrların irəli çəkilməsi vacib ünsürlərdəndir.

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASINDA SAHİBKARLIQ FƏALİYYƏTİNİN İNKİŞAFININ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1. Azərbaycan Respublikasında müasir sahibkarlıq vəziyyətinin təhlili

Ziddiyyətlər, tərəddüdlər nə qədər geniş və dərin olarsa, xüsusiyyətlərdə də o qədər geniş olar. Azərbaycanda iqtisadi münasibətlərin fərqli formalarının yaranması sahibkarlıq fəaliyyətinin inkişafı və istiqamətlənməsi üçün müvafiq şərait yaratdı. Bu münasibətlər dövlətin öncədən öz öhdəliyinə götürdüyü fərqli funksiyaların nəhayət sahibkarlıq fəaliyyəti əsasında reallaşdırılmasına gətirib çıxardı.

Cəmiyyətin fərdlərinin işlə təmin olunması, əhalinin məhsullara və xidmətlərə olan tələbatı, ölkədə məhsuldar qüvvələrin təşəkkülü, bununla bağlı olan başqa problemlərin həll edilməsi demək olar ki, sahibkarlıqla bağlıdır. Yeni iqtisadi münasibətlər sistemin təşəkkülü dövlətin mövcud təsərrüfat həyatına, eləcə də bu müəssisələrin təsərrüfatçılığına müdaxilə edilməsi zəruriliklərini aradan qaldırır.

Respublikamızın qazandığı uğurlu nəticələr, inkişaf dinamikasının göstəricilərinin davamlı şəkildə yüksəlməsi gerçəkləşdirilən siyasətin, aparılmış islahatların həyatda öz təsdiqini əks etdirib, iqtisadi və sosial nailiyyətlərin davamlılığı, həmçinin dayanıqlı inkişaf üçün inamlı bir zəmin yaratmışdır.

Təsadüfi deyildir ki, dünya ölkələrinin bir çoxunda yaşanan ağır iqtisadi və maliyyə böhranı mühitində belə İlham Əliyevin praktik və çevik siyasəti sayəsində ölkəmiz xarici iqtisadi təsirləri neytrallaşdırmışdır. Bununla yanaşı nəzərdə tutulmuş sosial və iqtisadi proqramlar icra olunub, iqtisadiyyatımız güclənib. Bütün bunlara nail olunmağında isə iqtisadiyyatın gücləndirilməsi və neftdən asılılığın minimuma qədər aşağı salınması, sahibkarlıq fəaliyyətinin gücləndirilməsi tədbirləri xüsusi önəm daşıyıb.

Ölkədə sahibkarlığın inkişaf etməsi üçün biznes şəraitinin daim yaxşılaşdırılması, sahibkarlıq sahəsində qanunvericilik bazasının gücləndirilməsi, xarici və yerli investisiyaların, idarəetmə təcrübəsinin, müasir texnologiyalarının cəlb olunması və bu yol ilə yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsulların

istehsal edilməsi Prezidentin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir.

Öncəliklə, başlıca hədəfimiz milli iqtisadiyyatımızın rəqabət qabiliyyətliliyinin artırılması, dünya təsərrüfat sisteminə inteqrasiyası, qeyri-neft sahəsinin, sahibkarlığın inkişaf etməsinin sürətləndirilməsi əsasında ölkədə əldə edilmiş dinamik inkişafetmənin uzunömürlüyünü və davamlılığını təmin etməkdir.

İlham Əliyevin rəhbərliyiylə aparılmış iqtisadi islahatlar yeni mərhələyə qədəm qoymuşdur və bu prosesin başlıca istiqamətləri sırasında orta və kiçik sahibkarlığın inkişafı, sahibkarlığın iqtisadiyyatda rolunun gücləndirilməsi prioritet kimi müəyyən olunub.

Ölkəmizdə sahibkarlığın inkişafında həyata keçirilən tədbirlərin davamı olaraq İlham Əliyevin 2017-ci il tarixli Fərmanıyla Kiçik və Orta Biznesin İnkişaf Agentliyi yaradılmışdır. KOBİA təsis edilərkən qarşıya qoyulmuş əsas məqsəd ölkədə kiçik, mikro və orta biznesin inkişaf etməsinə dəstək olmaq, iqtisadiyyatın inkişaf etməsində KOB-ların xüsusi rolunu artırmaq olmuşdur. Bu hədəflərə çatmaq məqsədilə Agentlik biznes mühitinin gücləndirilməsində iştirak, biznesə dövlət xidmətlərinin təkmilləşdirilməsi, KOB-ların innovasiya və biliklərə, maliyyəyə və bazarlara çıxışın yaxşılaşdırılması kimi beş başlıca istiqamətdə fəaliyyətdədir.

Sahibkarlığa dövlət himayəsinin həyata keçirilməsi, sahibkarlara dövlətin dəstəyi tədbirlərinin gücləndirilməsi bu sahədə əhəmiyyətli nailiyyətlərin əldə olunmasına şərait yaradıb. Dövlət-sahibkar münasibətləri inkişaf etdirilərək, sahibkarlığın dövlət tənzimlənməsi sisteminin gücləndirilməsi istiqamətində vacib addımlar atılmışdır. Sahibkarların hüquqları müdafiəsinin işlək mexanizmləri yaradılmışdır və onların tətbiqedilməsi nəticəsində müdaxilə halları müəyyən qədər azalmışdır.

Sahibkarlığın informasiya təminatının gücləndirilməsi, işgüzar əlaqələrinin inkişafı yönünüdə mütəmadi tədbirlər həyata keçirilir. Bununla bərabər, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi yaradılmış, bu mənbə hazırda orta

və kiçik sahibkarların maliyyə vəsaitlərinə tələbatının ödənilməsinin real mənbəyi olaraq çıxış edir.

Sahibkarlığın inkişaf etməsində qəbul olunmuş normativ-hüquqi sənədlər, sahibkarlığa dövlətin maliyyə mexanizminin daha çox təkmilləşdirilməsi iş adamlarında inam hissini artırmışdır. Sahibkarlıq fəaliyyətinin gücləndirilməsinə, əsasən də regionlarda sahibkarlıq subyektlərinin fəaliyyətinə təkan vermişdir (https://economy.gov.az/article/sahibkarl%C4%B1%C4%9F%C4%B1ninki%C5%9Faf%C4%B1-dinamikas%C4%B1/21386, 2019).

Ölkədə orta və kiçik sahibkarlığın inkişafı sahəsində ötən dövrü ərzində də bir sıra tədbirlər gerçəkləşdirilmişdir. Reallaşdırılan iqtisadi islahatların uğurlu nəticələri sahibkarlıq fəaliyyətinin inkişaf göstəricilərinin dinamikasının bariz təsdiqidir.Bu inkişafın nəticəsidir ki, ölkəmizdə kiçik, mikro və orta sahibkarlıq subyektlərinin makro-iqtisadi göstəricilərində artım dinamikası müşahidə edilmişdir. Bu artım temdensiyasını aşağıda verilmiş cədvəldən də görmək mümkündür.

**Cədvəl 3: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri**

| **Göstəricilər** | **2018** | | | |
|---|---|---|---|---|
| | **Cəmi** | **o cümlədən** | | |
| | | **Mikro** | **Kiçik** | **Orta** |
| Yaradılan əlavə dəyər, milyon manat | 9836,6 | 4467,8 | 1235,5 | 4133,3 |
| İşçilərin sayı, min nəfər | 283,4 | 35,0 | 76,1 | 172,4 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 445,3 | 294,9 | 373,5 | 517,1 |
| Əsas kapitala investisiyalar, mln. manat | 6953,0 | 2831,5 | 1046,7 | 3074,8 |
| Yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri, milyon manat | 17401,6 | 7082,9 | 2282,0 | 8036,8 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, (https://www.stat.gov.az/source/entrepreneurship/) 2018

Verilmiş cədvəldən görünür ki, 2018-ci ildə yaradılmış əlavə dəyər göstəricisi mikro sahibkarlıqda, işçilərin sayı, orta aylıq nominal əməkhaqqı, əsas kapitala investisiyalar və yüklənmiş malların, yerinə yetirilmiş işlərin, göstərilmiş xidmətlərin dəyəri orta sahibkarlıqda üstünlük təşkil edir.

## 2.2. Sahibkarlıq fəaliyyətində risklərin azaldılması yolları və inkişafına təsir edən amillər

Sahibkarlıq fəaliyyətinin özü təşkilati-hüquqi formaya sahib müəssisələrin əmlak məsuliyyətinə əsasən həyata keçirilir. Sahibkarların məlumatının azlığından istifadə edərək bazarda aparılmış əməliyyatların hesabına fəaliyyətini canlandırmaq üçün səy edən orta və xırda firmaların təkliflərinin hamısı daima reklam edilir.

Risklərin nəticəsini aradan qaldırmaq məqsədilə yalnız təcrübə və dərrakə yox, eyni zamanda, kifayət qədər maliyyə vəsaitinin olması da zəruri haldır. Konsultant firma, podratçı və mal göndərənlər əsasən risklərin kompensasiyası üzrə məhdud formada maliyyə vəsaitlərinə sahib olurlar. Bu və digər layihələrin yüksək səviyyə risklərə malik olması çalışanları məcburiyyət qarşısında qoyur ki, risklərin aşağıya endirilməsi imkanların axtarsın. Risklərin azaldılmasının əsas vəsaitlərinə aşağıdakılar aiddir (Niftullayev V.M., 2002: s. 79):

- layihənin hazırlanması üçün məsləhətçilər və kompotent tərəf müqabillərdən hər birinin cəlb edilməsi;
- proqramla bağlı layihə ərəfəsindəki işlər və hazırlıq mərhələsinin əhatə dairəsinin artırılması;
- bazar konyukturunun inkişaf tendensiyası, xidmət və məhsullar üzrə olan tələbin proqnozlaşdırılması;
- layihə icraçıları və iştirakçıları arasındakı risklərin uyğun şəkildə bölüşdürülməsi;
- sığorta ilə bağlı məsələlərin vaxtında gerçəkləşdirilməsi;
- gözlənilməz risklərin ortdan götürülməsi üçün vəsait ehtiyatının hazırlanması.

Sahibkarlıq praktikasında istehsal riskləri məhsulların satışı və istehsalı, hər hansı bir istehsal fəaliyyətinin həyata keçirilməsi ilə əlaqələndirilir. Bu risk növləri satış və istehsalın azalması, planda nəzərdə tutulmuş əmlak və maddi məsuliyyətin artması, qiymətlərin müəyyən bir azalması və s. çox əhəmiyyətli təsir göstərir.

Kommersiya riskləri malların və xidmətlərin satışı ilə yaranır. Biznes risklərinə təsir edən əsas amillər bunlardır:

1. alınmış istehsal vasitələrinin qiymətlərinin səmərəsiz olaraq dəyişməsi, yəni ki, qalxması;
2. reallaşdırılmış məhsul qiymətinin bir qədər aşağı düşməsi;
3. tədavül prosesi üzrə məhsul itkisi;
4. tədavül məsrəflərinin yüksəldilməsi.

Maliyyə riskləri maliyyə əməliyyatları apararkən tərəflərdən birinin ödəmə qabiliyyətini, həmçinin valyuta əməliyyatlarında məhdudiyyətləri də nəzərə almalıdır.

Sahibkarlıq fəaliyyəti risklərindən itkilər maliyyə, müvəqqəti itkilər, maddi əmək, xüsusi itkilər növləri kimi fərqlənir. Maddi itkilər layihədə nəzərdə tutulmayan xərclərlə əlaqələndirilir. Bundan əlavə, maddi itkilər maddi obyektlərin birbaşa itkiləri ilə xarakterizə olunur.

Əmək itkisi iş vaxtının itkisidir. Bu gözlənilməz və təsadüfi şərtlərlə bağlıdır. Bu itkilər insan-saat və ya insan günləri ilə ölçülür.

Digər zərər növü maliyyə itkisidir. Bu itkilərə dəyər itkisi səbəb olur. Layihə, ehtimal olunan maliyyələşdirmə mənbələrindən vəsait almadıqda və ya daha çox alınmaması, habelə borclar ödənilmədikdə maliyyə itkiləri baş verə bilər.

Layihədəki iş proseslərinin gec başa çatması hallarında vaxt itkisi yaranır. Zaman itkisi günlər, saatlar, on günlər və aylarla ölçülməkdədir.

Xüsusi itkilərə insanların həyatı və sağlamlığına, ətraf mühitə dəymiş zərər nəticəsində əmələ gəlmiş itkilər aid edilir, səmərəsiz sosial və psixoloji ünsürlərlə şərtlənir.

Digər itki növü sayılan xüsusi növ itkilər isə siyasi və gözlənilməz amillərin təsirindən əmələ gələn itkilər aid edilir. Bu amillərə eləcə də əmələ gəlmiş qarmaqarışıqlıq iqtisadi mühit belə təsir edir ki, bu, iqtisadi və sənaye fəaliyyətini ritmin pozur. Nəticədə isə əşyalaşan və canlı əmək məsariflərin artırır, belə olduqda isə mənfəət azalır.

Biznes risklərinin azaldılması bazar şəraitində firmalar və müəssisələrdə biznes planlarının mükəmməl qüsursuz işlənib hazırlanması və verilən proqnozlardan xeyli asılıdır (Niftullayev V.M., 2002: s. 86).

Problem nə qədər başa düşülən və yaxşı təhlil edilsə, sahibkarlar işə başlayanda problemi həll etmək üçün daha təsirli qərarlar qəbul etməklə risklərini azaltma ehtimalı o qədər yüksəkdir. Ən təsirli və optimal iş planına investorlar və tərəfdaşlarla razılaşdırılmış məsələlər daxildir. Bunlara daxildir:

1. fəaliyyəti həyata keçirmək üçün zəruri sayılan maddi və texniki baza lazımi qədər təkmilləşibdirmi?;

2. xarici və daxili bazarlarda analoji məhsula qiymətlə tələbin dinamik səviyyəsi hansı səviyyədədi?;

3. istehsal olunacaq məhsula, ediləcək xidmət üzrə olan tələb üç-beş ilə davam edirmi?;

- Təklif olunan fəaliyyət sahələri reallıqdırmı və onlar yetərli və etibarlıdırmı?

Bu hesablamalar bir iş planının daha iqtisadi versiyasını seçmək üçün vacibdir.

Effektiv və optimal bir şəkildə hazırlanan bir iş planı təxmin edilən gəlir qazanma ehtimalını artırır.

Əgər sahibkar biznes planının hazırlanmasında şəxsən iştirak edirsə, bu planda nəzərdə tutulan prosedurlar risklərin azaldılmasına daha çox təsir göstərməlidir. Sahibkar gələcək iş prosesinin bir modelini yaratdığından, iş planının hazırlanması ümumi mərhələlərdə yoxlanılır, hədəflərə çatmaq üçün qiymətləndirilmiş və düşünülməmiş risklərin mövcudluğu müəyyən edilir, son xərc nəticəsi tez bir zamanda qeyd olunur.

Sahibkarlıq riskinin aşağıya salınması üzrə bines-planın təsiri o halda daha qüvvətli olmaqdadır ki, biznes-planın mərhələlərinin hamısı arasındakı ardıcıllıq nəzərə alınsın.

Sahibkarlıq prosesi üzrə yeni maddi dəyərlər yaradılmaqdadır. Bu iş növünə əmtəənin istehsalı, istehsal təyinatına sahib olan əmtəələrin istehlakı, istehsalla əlaqəli xidmətlər, ayrı-ayrı xidmətlərin həyata keçirilməsi, elmi, texniki və informasiya fəaliyyəti daxil olmaqdadır. İstehsal fəaliyyətiylə məşğul olmaq istəyi olan hər bir sahibkar əvvəlcədən hansı fəaliyyət növü üzrə məşğul olacağını, hansı mal istehsal edəcəyin və hansı xidmətlər göstərəcəyin əvvəlcədən müəyyənləşdirməlidir. Sahibkar öz istehsal fəaliyyətin təşkil edən zaman eyni zamanda həmin fəaliyyət növünə təsir göstərən amilləri öyrənməli və onların hər birini nəzərə almalıdır.

Sahibkarlığın təşkil edilməsi və gerçəkləşdirilməsi üçün ən önəmli amillər həmin sahibkarlıq növü üzrə məşğul olmaq istəyi olan sahibkarın mövcudluğu, istehsal aktivlərinin və işçi qüvvəsinin olmasıdı. Bununla yanaşı, işin təşkili və uğurlu fəaliyyət göstərməsi bir sıra digər amillərdən də asılıdır və sahibkar həmin amilləri nəzərə almalıdır. Ümumiyyətlə, bu amillər daxili və xarici amillərə bölünür. Daxili amillər birbaşa işdən asılı olan və onun tərəfindən idarə olunan amillərdir (Əliyev A.V., 2018: s. 12).

Daxili amillərin idarə olunması nisbidir. Sahibkarın bu amillərin formalaşma metodlarını və ya onların istifadəsi üçün mövcud variantlardan birin seçmək imkanı var. Bundan başqa, sahibkar daxili amillərin hər birini inkişaf etdirməyə istiqamətləndirmə qabiliyyətinə malikdir

Sahibkarlıq fəaliyyətinə təsir edən əsas daxili amillər aşağıda göstərilənlərdir:

- sahibkar məqsədi;
- məqsədə çatmaq üçün seçilmiş texnika və texnologiya;
- seçilən texnika və texnologiyaya müvafiq təşkilatı struktur;
- struktur bölmələrə məxsus vəzifələr;
- qarşıya qoyulmuş tapşırıqların icraçılarının peşəkar tərkibi, həmçinin hazırlıq səviyyəsi.

Sahibkar seçilmiş məqsəd və vəzifələrin uğurla həyata keçirilməsi üçün uyğun avadanlıq və texnologiyanı seçməlidir. Həmçinin, qeyd etmək gərəkdir ki, elmi və texnoloji tərəqqinin inkişafı ilə istehsalın mexanizasiyası, avtomatlaşdırılması, kompüterləşdirmə səviyyəsi artır və məhsul keyfiyyətinə tələbat artır, texnologiyanın istehsal sahibkarlığına təsiri artır.

Elmi və texniki tərəqqi sahibkarlıq fəaliyyətinin bütün mərhələlərində əmək bölgüsünün dərinləşməsinə səbəb oldu və bu indi də davam edir. Sözügedən əmək bölgüsü müəssisələrin hər birində təşkilati strukturların formalaşması üçün önəmli rol oynayır. Sahibkarın seçdiyi texnologiya, ixtisaslaşdırılmış əmək bölgüsü vasitəsilə mərhələlər və hissələrə ayrılır ki, bunun üçün ayrı iş yerləri, həmçinin şöbələr təşkil edilir. Mütəşəkkil iş yerləri, həmçinin bölmələr bir iyerarxiya daxilində bir-birini tamamlamalıdır.

Müəssisənin təşkilati quruluşunun hər bir şöbəsinin özünəməxsus hədəfləri var, onlar da öz növbəsində bölmənin iş yerləri üzrə hissələrə ayrılır. Hər bir vəzifə ümumi bir məqsədə xidmət etməlidir. Buna görə sahibkarlıqda iş yerləri və şöbələrdə vəzifələrin düzgün bölüşdürülməsi və paylanması vacibdir.

İqtisadi amillər adətən əhalinin alıcılıq qabiliyyəti ilə əlaqədardır. Ona görə ki, sahibkarlığın hədəfinə çatmaq, yəni qazanc əldə etmək üçün bir vasitədir. Alıcıların maliyyə vəsaitlərinin az yaxud çox olması onların alacaqları əmtəələr və istifadə edəcəyi xidmətin növləri, kəmiyyəti, bu əmtəələrə və xidmətlərə əsasən ödəməyə hazır olduqları pulun miqdarını müəyyən edir.

Həmin məbləğ nə qədər yüksək olsa, sahibkarlıq üçün əmələ gəlmiş şərait daha yaxşı olar. Bundan əlavə, iqtisadi amillərə iş yerləri və məşğulluq səviyyəsi daxildir. Məşğulluq səviyyəsi nə qədər yüksək olarsa, vətəndaşların gəliri də o qədər yüksək olar. Məlumat, kredit almaq imkanları, müxtəlif maliyyə stimulları və sahibkara dövlət yardımı da iqtisadi amillərlə əlaqələndirilməlidir.

Dövlətin maliyyə, kredit və vergi siyasəti də sahibkarlıq fəaliyyətinin əhəmiyyətli təşkili üçün vacibdir. Aşağı faiz dərəcələri və vergi güzəştləri, biznesin inkişafı üçün əlavə stimul yaradan iqtisadi amillər olaraq xüsusi əhəmiyyət kəsb edir.

Biznesdə hüquqi amillərin rolu böyükdür. Sahibkarlıq ancaq qanunla qorunursa inkişaf edə bilər. Buna görə də hər ölkədə, eyni zamanda ölkəmizdə sahibkarlığın, xüsusilə sənaye sahibkarlığının inkişafı üzrə mütərəqqi qanunlar qəbul edilməli və həyata keçirilməlidir. İnkişaf etmiş dövlətlərdə bu istiqamətdə çox işlər görülüb və buna görə də bu dövlətlərdə sahibkarlığın inkişaf etməsi üçün səmərəli hüquqi mühit yaradılıb. Azərbaycan bu ölkələrin təcrübəsindən yararlanmalıdır.

Ölkədəki mövcud sosial-mədəni mühit sahibkarlığın inkişafında da rol oynayır. İctimai şüur yüksək səviyyədə təhsil alan dövlətlərdə sahibkarlığın inkişaf etməsi üçün daha əlverişli sosial-mədəni mühit mövcuddur. Bundan əlavə, mənəvi və dini normalar, adət-ənənələr, yaş və cins, əhalinin yerləşmə səviyyəsi, miqrasiya meylləri də sahibkarlığın formalaşması və inkişafında mühüm rol oynayır. Qeyd olunanlar İnsanların zövqlərini, dünyagörüşünü, yaşayış tərzini, sahibkarlıq üzrə münasibətini formalaşdırır, müxtəlif xidmət və mallara, iş şəraitinə, əmək haqqına ehtiyaclarını müəyyənləşdirirlər (Abbasov S.A., 2011: s. 139).

Sahibkarlıq ilk növbədə müəyyən texnologiyaların və texnikaların istifadəsinə əsaslanır. Ölkədə elm, texnologiya və texnikanın inkişaf səviyyəsi yüksəldikcə sənaye sahibkarlığının inkişafı sürətlənir, təzə istehsal sahələri və müəssisələr yaranır.

Təbii ki, müxtəlif istehsal sahələri üzrə sahibkarlıq fəaliyyətinin təşkil edilməsi yalnız bir sıra avadanlıq və texnologiyaların olması ilə deyil, həm də onların əldə edilməsi ilə əlaqələndirilir.

Eyni zamanda, yeni avadanlıq və texnologiyaların tətbiqi, istehsalın davamlı yenilənməsi və modernləşdirilməsi yolu ilə rəqabətə qarşı durmaq və davamlı sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq mümkündür. Bununla birlikdə, bütün sahibkarların, xüsusən də kiçik və orta sahibkarların yeni avadanlıq və texnologiyalardan istifadə imkanları yoxdur. Beləliklə, dövlət vergi güzəştləri sahibkarlara, xüsusilə kiçik və orta sahibkarlığa kömək etməli və bununla da istehsalda yeni avadanlıq və texnologiyalardan istifadə etmələrini təşviq etməlidir.

Azərbaycanda sahibkarlığın, bilavasitə də istehsal sahibkarlığının bu və başqa sahələrinin inkişafı üçün mövcud təbii-iqlim mühiti, təbii sərvətlərin olması, avtomobil, hava, su və dəmir yolu şəbəkələrinin inkişaf səviyyəsi, dövlətin coğrafi mövqeyi, həmçinin beynəlxalq əmək bölgüsü üzrə iştirak səviyyəsi səmərli rol oynayır.

Dövlətin əlverişli coğrafi mühiti sahibkarlığın müəyyən sahələrinin inkişafı üçün əlavə stimul yaratmaqla yanaşı, ölkəyə xarici sərmayələrin cəlb edilməsi üçün də əlverişli şərait yaradır.

İnfrastrukturla əlaqəli amillər istənilən ölkədə sahibkarlığın inkişafında, xüsusən də ölkəyə xarici sərmayələrin cəlb olunmasında mühüm rol oynayır. İnkişaf etmiş dövlətlərin təcrübəsindən aydın olur ki, sənaye sahibkarlığının səmərəli təşkilinə eyni zamanda aşağıda göstərilən xarici amillər də təsir edir (Əhmədov T., 2012: s.17):

- tərəfdaşlar və tərəfdaşlıq əlaqələrinin səviyyə və etibarlılığı;
- əməkdaşların peşəkarlıq səviyyəsi;
- firmanın alıcılar arasında nüfuzu;
- həmkarlar ittifaqları;
- rəqiblər, onların üstün, həmçinin zəif cəhətləri və rəqabətin səviyyəsi;
- dünya bazarlarındakı vəziyyət.

Sahibkarlığın formalaşması və inkişafına müəssisədaxili, həmçinin müəssisəxarici amillərlə birgə sosial-iqtisadi faktorlar da əhəmiyyətli şəkildə təsir göstərir. Sahibkarlıq fəaliyyətinin faydalı həyata keçirilməsində həmin amillərin rolunu nəzərə almaq, həmçinin onlardan istifadə etmək gərəkdir (Namazov N.İ., 2018: s.2).

Qeyd etmək gərəkdir ki, sahibkarlığın formalaşması üçün təsir göstərən sosial-iqtisadi amillərin hamısı bir-birindən fərqlənməkdədir. İnkişaf etmiş dövlətlərin, həmçinin də Azərbaycanın sahibkarlıq sahəsində qazandığı təcrübənin təhlili bucür bir nəticəyə gəlməyə imkan yaradır ki, bu sahibkarlıq növünün formalaşması üçün aşağıdakı amillər təsir göstərir:

-sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən bir insanın dünyagörüşü, təlim səviyyəsi, şəxsi keyfiyyəti, iş qabiliyyəti, təşkilatçılıq bacarıqları: ailə-məişət münasibətləri; cəmiyyətin sahibkarlıq fəaliyyəti üzrə münasibəti;

- əhalinin sosial-iqtisadi durumu.

Təbii ki, sahibkarlığın formalaşmasına təsir göstərən əsas sosial-iqtisadi amil sahibkarlıqla məşğul olmağı istəy şəxsin dünyagörüşü, təlim səviyyəsi, şəxsi keyfiyyətləri, iş qabiliyyəti, xüsusən də təşkilatçılıq qabiliyyəti ilə əlaqələndirilir. Gələcək sahibkarın geniş dünyagörüşünün olması ona ən uyğun istehsal növünü seçməyə kömək edir; Yüksək hazırlıq səviyyəsi (təhsil, ixtisas, iş təcrübəsi və s.), İşgüzar, təşkilatçılıq keyfiyyətləri olan gələcək sahibkarın özü istehsal fəaliyyətini müasir tələblər səviyyəsində qurmaq imkanına malikdir (Əhmədov T., 2012: s.108).

Gələcək sahibkarın ailə və məişət münasibətlərinin olması sahibkarlıq fəaliyyətinin formalaşmasında mühüm rol oynayır. Bir işə başlamaq istəyənlər təbii ki, tərəfdaşın ilk növbədə ailəsində axtarır və ailə üzvlərdən hər birinin köməyinə və dəstəyinə arxalanırlar. Normal ailə-məişət münasibətləri olmayan şəxsin sahibkarlıq fəaliyyətində müvəffəqiyyət qazanması çox vaxt mümkün olmur yaxud da xeyli çətin başa gəlir.

Son onilliklərdə Azərbaycanda həyata keçirilən səmərəli və uğurlu iqtisadi islahatlar ölkəmizdə sahibkarlığın qurulması və inkişafı üçün geniş imkanlar açdı və iqtisadiyyatdakı rolunu daha da artırdı.Sahibkarlığın inkişafı üzrə önəmli olan qanunvericilik bazası yaradılıb, sahibkarların hüquq-qanuni maraqlarının qorunmasını, sahibkarlıq fəaliyyətinin əhəmiyyətli dövlət tənzimlənməsini və sahibkarlıq mühitinin yaxşılaşdırılmasını təmin edən müvafiq normativ hüquqi aktlar qəbul edilmişdir.

Azərbaycanda aparılan köklü islahatlar və yığılmış təcrübədən bir daha aydın olur ki, dövlətlə sahibkar arasındakı münasibətlərin tənzimlənməsi müasir iqtisadiyyat prinsiplərinə əsaslandığı və sahibkarlıq ölkənin sosial-iqtisadi inkişafının əsas hərəkətverici qüvvəsinə çevrildiyi zaman ən yaxşı nəticələr əldə

edilir. Bu baxımdan, ilk növbədə respublikada sahibkarlığın inkişafı üçün daha səmərli iş mühitinin olması vacibdir.

Məhz Azərbaycanda formalaşmış səmərəli biznes şəraitinin nəticəsidir ki, özəl sektor templə inkişaf edir. Müstəqil Azərbaycanda ötən dövr ərzində ölkənin həyata keçirdiyi davamlı və müvəffəqiyyətli iqtisadi islahatlar biznes şəraitinin formalaşması və azad rəqabətin inkişafı üçün önəmli rol oynamışdır. Nəticədə ölkəmizdə 1995-ci ildən başlayaraq sahibkarlıq və biznes sektorunun dinamik inkişafının olması təmin edilmişdir.

Dövlət iqtisadiyyatında sahibkarlığın inkişaf səviyyəsi ölkə üçün yaradılmış səmərəli biznes mühiti ilə birbaşa əlaqəlidir. Sahibkarlıq fəaliyyəti və biznes mühitinə isə ayrı-ayrı çoxsaylı amillər təsir göstərir. Bu amillər sahibkarlıq fəaliyyəti üzrə nə qədər səmərli olarsa, özəl sektor üzrə də bir o qədər yüksək dinmaikayla inkişaf etməkdədir, iqtisadiyyatda isə xüsusi çəkisi, həmçinin rolu artır. Sahibkarlıqğa iqtisadi-siyasi, sosial-demoqrafik, texnoloji-ekoloji, mədəni-hüquqi, beynəlxalq amillər önəmli və həlledici dərəcədə təsir edir.

Bu amilləri daxili və xarici olmaqla da iki qrupa ayırmaq olar. Daxili amillərə sahibkarın məqsədləri, vəzifələri, müəssisə strukturu, kadrlar və texnoloji məsələlər aiddir. Sahibkar nəyi əldə etmək istədiyini, məqsədi və vəzifələrini aydın bilməlidi ki, müvəffəqiyyətli nəticəyə nail ola bilsin. Həmçinin müəssisənin strukturu, idarə edilməsi optimal, çağdaş olmalıdır. Müəssisələrin hər biri rəqabət qabiliyyətli olmaq üzrə ən yeni texnologiyalar və peşəkar kadrlardan istifadə etməlidi.

Sahibkarlıq fəaliyyətinə xarici amillər, müəssisə xaricindəki şərait mühüm təsir edir. Sahibkar firma və müəssisənin bu mühit üzrə olan münasibətdə zəif və güclü xüssusiyyətlərini, imkanları, təhlükələri konkret hesablaya bilməlidir. Sahibkar öz fəaliyyətin qurarkən konkret şəkildə respublikadakı iqtisadi-siyasi, social-texnoloji, mədəni-hüquqi mühiti, fiziki, coğrafi (iqlim) amilləri, demoqrafik vəziyyətləri, institusional, təşkilati-texniki vəziyyəti nəzərə almalıdı. Bu amillərə iqtisadi azadlıq, şəxsi maraqlar, bazar, rəqabət, ölkənin məhdud rolu da aiddir. Əlverişli sahibkarlıq mühiti nöqteyi-nəzərdən iqtisadi azadlıqların mövcudluğu

önəmli amidir. İqtisadi azadlıqlar sahibkarın özünə imkan yaradır ki, istədiyi işlə sərbəst şəkildə məşğul olsun, bazar və resurslara sərbəst çıxış perspektivləri əldə etsin və fəaliyyətin genişləndirsin və s. (Qasımov F.H., İsmayılov İ.H., Qasımova L.F., 2008: s.241).

Qanunlar və dövlət orqanlarının tənzimləmə siyasətinin özü də müəssisələrin fəaliyyətinə təsir göstərir. Hər bir müəssisə müəyyənləşdirilmiş hüquqi statusa sahibdir ki və onun əsasında öz işlərin qura bilər. Dövlət müəssisələrin fəaliyyəti üzrə birbaşa (qanunlar ilə) və dolayı olaraq (vergilərin tədbiq edilməsi, dövlət büdcəsinin vasitəsilə) təsir edir. Müəssisələr dövlətin qanunları və hökumət strukturları qərarlarına əməl etməlidir. Əks vəziyyətdə onları cəza tədbirləri gözləməkdədir. Hökümət orqanları öz fəaliyyəti sferalarına məxsus sahələri qanunvericilik çərçivəsində tənzimləməkdədirlər. Dövlət vətəndaşlarının azad sahibkarlıq hüququnun olması Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmişdir. 1992-ci il dekabr ayında Sahibkarlıq fəaliyyəti barədə” qanunun qəbul edilməsi ilə sahibkarlığın hüquqi əsasları yaradılıbdır. Qanunda sahibkarlıq subyektləri, sahibkarlıq formaları, sahibkarlığın hüdudlarının hüquqi nizamlanma prosesi, sahibkarın hüququ və vəzifələri, sahibkarda əmlak məsuliyyəti müəyyən olunur, sahibkarlığın dövlətin tərəfindən tənzimlənməsi və sahibkarlıq fəaliyyətindən əldə olunan mənfəətdən, iş sahibinin şəxsi gəlirlərindən vergi tutulması məsələlərinin hamısı öz əksini tapıb.

Dövlətin roluna gəldiyimiz zaman isə o, sahibkarlıq fəaliyyətinin dəstəklənməsi üçün önəmli rol oynamalı, sahibkarlıq fəaliyyətinin mühitinə müdaxilə etmənin forma və metodlarının tədbiqi zamanı balanslaşdırılan siyasət yeritməli, sahibkarlıq inkişafını stimullaşdırmalıdır. Sahibkarlıq fəaliyyətinə təsir edən belə amillər mürəkkəb, çoxcəhətli və dəyişkəndir. Həmin faktorlar özləri isə çoxsaylı faktorların təsiri nəticəsində dəyişirlər. Müəssisənin effektli fəaliyyət göstərməsi məqsədilə yüksək ixtisasa malik, peşəkar işçi qüvvəsi tələb edilir. Məsələn, ölkəmizdə müasir İKT, rabitə və nəqliyyat xidməti adlı sahələrin inkişafı hazırda elə bir səviyyəyə gəlib çıxmışdır ki, burada yüksək ixtisası olan kadrlar

tələb edilir. Həmçinin müasir alıcıların tələbləri, xidmətlərin texnikaları o qədər yüksəkdir ki, bu zaman kadrların ayrıca hazırlıqlı olması önəmlidir.

Rəqabətin özü də sahibkarlıq fəaliyyətinə təsir edən əsas faktorlardandır. Rəqabət iqtisadi alət olması ilə yanaşı iqtisadi azadlıqlar və şəxsi marağın sərhədlərin müəyyənləşdirir. Bazarda uğur əldə etməyin əsas faktorlarından biri isə istehlakçının rəğbətinin qazanılması, onların tələbatının hansı səviyyə üzrə ödənilməsi ilə əlaqəlidir. Rəqiblər yalnız istehlakçılar uğrunda yox, əmək ehtiyyatları, material, capital, texniki yeniliklərin əldə edilməsi sahəsində də mübarizə aparırmaqdadırlar. Çağdaş elmi-texniki inkişaf rəqabətin olmasını gücləndirmişdir. Sahibkarlığa sosial-mədəni amillər-əhalinin əmək haqqı, gəliri, əmək şəraiti, əmək əlaqələri, habelə xalqın adət və ənənələri də tələbin formalaşması üçün təsir edir.

Beynəlxalq bazardakı vəziyyətlə əlaqəli faktorlar isə sahibkarlıq fəaliyyətinə təsirsiz keçmir. Hər bir dövlətin iqtisadi vəziyyəti, maddi ehtiyyatları, siyasidurmu, qanunları, mədəniyyəti və inkişaf səviyyəsi bir-birindən fərqləndiyinə görə həmin amillər də çox mürəkkəbdir. Bu səbəbdən də, dünya bazarlarına çıxmaq istəyən ölkə sahibkarları və müəssisələri xarici amillərin hamısını nəzərə almalıdılar. Həmin amilləri ümumiləşdirərək 4 qrupa ayırmaq olar: mədəniyyət, iqtisadiyyat, qanunvericilik, dövlət tənzimlənməsi və siyasi durum. Mədəniyyətə hər bir dövlətin milli, mənəvi dəyərləri, dinifaktorlar, adət-ənənələr aiddir. Hər bir cəmiyyət mədəniyyətə malikdir ki, bu isə onun həyatında özünü büruzə verir. Buna müvafiq olaraq da cəmiyyətdə mal və xidmətlərə tələbat formalaşmaqdadır. Bu səbəbdən də sahibkarlar bu cür amilləri nəzərə almalıdılar. Xarici bazara çıxmaq isti olan şirkətlər fəaliyyətdə olmağı istədiyi ölkədəki gerçək iqtisadi vəziyyəti araşdırmalı və təhlil etməlidir. Sahibkar bu ölkənin vergi xüsusiyyətləri, iqtisadi qanunvericilik bazası, əmək münasibətləri və standartlarını da nəzərə almalıdı.

Siyasi amillər də sahibkarlıq mühitinə təsir göstərən mühüm faktorlardan biridir. Bu nöqteyi-nəzərdən ölkəmizdə mövcud siyasi stabillik biznes və sahibkarlığın stabil, davamlı inkişafına imkan yaradır. Sahibkarlığın inkişafı Azərbaycanını iqtisadi siyasətinin başlıca istiqamətlərindən biri olmaqla,

respublikada iqtisadi və sosial məsələlərin həllinin, cəmiyyətdəki sabitliyin möhkəmləndirilməsinin önəmli amili hesab edilir. Ölkəmizdə siyasi və makroiqtisadi sabitlik sahibkarlıq fəaliyyətinin inkişafı üçün səmərəli mühit yaratmışdır.

Müsbət haldır ki, Azərbaycanda sahibkarlığın inkişafı yönündə aparılan tədbirlər hazırda öz müsbət nəticələrini veribdir. Aparılmış islahatlar daha da çox vüsət almış və sahibkarlıq fəaliyyətinin inkişaf sahəsində keyfiyyət baxımdan yeni-belə ki, davamlı inkişaf mərhələsi üzrə qədəm qoyulubdur. Yeni mərhələnin başlıca hədəfi, sosial ədalətlilik, iqtisadi səmərəlilik prinsiplərini rəhbər tutmaqla qeyri-neft sahəsinin, sahibkarlığın inkişafının sürətləndirilməsi, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsidir.

### 2.3. Sahibkarlıq fəaliyyətində işgüzar münasibətlər və sosial nəticələr

Sahibkarlıqla əlaqədar işgüzar fəaliyyəti başlayarkən ilk olaraq bazarın marketinq tədqiqatları reallaşdırılmalıdır. Bu zaman bir çox şərtlər nəzərə alınmalıdır:

1. siyasi faktorlar- mülkiyyətin, əmlakın, investisiyanın müdafiəsi, siyasi sistemində sabitlik;

2. sosial-iqtisadi-cəmiyyətin təbəqələrinin alıcılıq qabiliyyəti, insanların sürətlə artan tələbatının maksimum dərəcədə ödənilməsinə edilən cəhd. Bu vaxt rəqabət imkanlarına xüsusilə diqqət yetirilməlidir. Bundan başqa sosial və iqtisadi faktorlara inflyasiya prosesləri, maliyyə-kredit münasibətlərinin vəziyyəti də aid olunur;

3. hüquqi-sahibkarlıq prosesinin qanunvericilik bazasının formalaşması.

Yeni müəssisənin yaradılması müasir dövrdə ən aktual problemlərdən biridir. Bu məsələ bir çox zəruri mərhələlərdən keçir. Bu müəssisələrin yaradılmasının ilkin mərhələsində təsiçilərinin tərkibi müəyyənləşdirilir, təsis sənədləri toplanılır. Müəssisənin yaradılması, nizamnaməsi və müəssisə barədə müqavilə onun təşkilati və hüquqi formasını təşkil edir.

Müəssisə qeydiyyatdan keçdikdən sonra otuz gün müddətində nizamnamə kapitalının 50 faizdən az olmayaraq həmin hesaba pul daxil olunur. Növbəti mərhələdə müəssisə hakimiyyət orqanları tərəfindən qeydiyyatdan keçirilir. Uyğun orqan tərəfindən dövlət qeydiyyatından keçmək prosesində aşağıda göstərilən sənədlər təqdim olunmalıdır (Niftullayev V.M., 2002: s.230):

1. təsisçilərin qeydiyyatdan keçirilməsi ilə əlaqədar ərizəsi (müraciəti);
2. müəssisə nizamnaməsi;
3. müəssisənin yaradılması barədə qərar (təsis yığıncağının qərarı);
4. müəssisənin yaradılması, fəaliyyəti barədə təsis müqaviləsi;
5. dövlət rüsumunun ödənilməsi barədə arayış.

Qeydiyyatdan bitdikdən və müəssisənin qeydiyyatdan keçməsi barədə bütün sənədlər əldə olunduqdan sonra həmin sənədlər yeni müəssisənin Dövlət Reyestrinə daxil edilməsi üçün Maliyyə Nazirliyinə təqdim olunmalıdır. Yeni müəssisənin yaradılmasının son mərhələsində iştirakçılar əmlaklarını müəssisəyə cəlb edirlər, bankda daimi hesablaşma hesabı açırlar, dairəvi möhür, künc ştampı əldə edir. Bütün bu proseslərdən sonra yeni müəssisə müstəqil hüquqi şəxs olaraq fəaliyyət göstərir.

Sahibkarların əksəriyyəti əlverişli və sərfəli variant olaraq məhdud məsuliyyətli yoldaşlıq formasını seçir. Bu formanın tətbiq olunduğu şəraitdə cəmiyyətin üzvləri onun öhdəliklərinə cavabdehlik daşımır, qoyulan əmanətlərin dəyəri daxilində cəmiyyətin fəaliyyətiylə bağlı zərərlik riski mövcud olur.

Müəssisənin təsis edilməsi zamanı təsiçilərlə əlaqədar məsələlər də məmələ gəlir. Təsisçilər müəyyənləşdirililərək seçilərkən ilk olaraq onların işgüzar fəaliyyət intizamı, ödəmə qabiliyyəti, tam qarşılıqlı inam xüsusilə nəzərə alınmalıdır.

İstehsal fəaliyyətiylə birbaşa bağlı olan müəssisənin yaradılması vaxtı müəssisənin texniki və iqtisadi əsaslandırılaraq hazırlanması məqsədəuyğun hesab olunur.

Firma sahibkarlıq fəaliyyətinin ilk mərhələsində bir sıra problemlərlə üzləşir. Onlardan 1-cisi müəssisənin özünə təsərrüfat məkanı seçməsidir. Bunun üçün

sahibkar bazarın mövcud vəziyyətini, müəssisənin fəaliyyətdə olduğu region və sahədə bu və yaxud başqa məhsula olan təklif və tələbin səviyyəsini öyrənməlidir. Bundan əlavə sahibkar tərəfindən təsərrüfat fəaliyətində yarana bilən maneələr və məhdudiyyətlər, habelə kredit və vergi sahəsində əldə oluna biləcək güzəşt imkanları ətraflı şəkildə götür-qoy edilməlidir.

Təsərrüfat fəaliyyətinin həyata keçməsi məqsədilə ümumi şərait qiymətləndirilməlidir. Bütün bu məlumatlar cari nəşrlərdə, qanunvericilik aktlarında və statistik informasiyalarda ətraflı şərh olunur. Əlavə olaraq belə informasiyalar xüsusi şəxslər vasitəsiylə də əldə oluna bilər. Sahibkar tərəfindən qiymətli informasiyalara təsərrüfat fəaliyyətində heç bir halda etinasızlıq göstərilməməlidir.

Müəssisənin fəaliyyətində sonrakı mərhələ istehsalın bazarının formalaşmasıdır. Sahibkar anbar və istehsal avadanlıqlannı, material və xammalları, komplektləşdirici məmulatları, yarımfabrikatları və başqa istehsal vasitələrini əldə etmək, yaxud icarəyə götürmək kimi zərurət qarşısında qalır və istehsal prosesinə işçi qüvvəsi cəlb edir. Yeni müəssisə istehsalçıları materiallar və xammal göndərir. İşçilərə tələbatın ödənilməsi isə əmək birjaları, mətbuatda elanlar verilməsi, şəxsi tanışlıq və başqa yollarla təmin olunur.

Yeni müəssisənin fəaliyyətində ən vacib mərhələ maliyyə vəsaitlərinin cəlb olunmasıdır. Bir çox hallarda sahibkarlarda təsərrüfat fəaliyyətinin son və başlanğıc mərhələsində vəsait kifayət qədər olmur. Vəsaitlərin qıtlığı səhmlərin cəlb olunması, müəssisənin mənfəətində qismən iştiraketmə hüququ verilməsi, xüsusi borc öhdəliklərinin buraxılması, nəhayət kommersiya banklarından kreditlər götürülməsi yoluyla aradan qaldırıla bilər. Bu vaxt müəssisə fiziki və hüquqi şəxslərə, həmçinin onun səhmlərini, horc öhdəliklərini əldə edənlərlə, eləcə də kommersiya banklarıyla qarşılıqlı münasibətlər təşkil edir. Bank kreditləri ortamüddətli, uzunmüddətli və qısamüddətli olaraq fərqləndirilir.

Yeni müəssisələr əlavə kapitalın fəaliyyəti məqsədilə zəruri mühit təmin olunduqda normal şəkildə fəaliyyət göstərə bilərl. Qeyd etmək gərəklidir ki,

sahibkarlıq prosesini maliyyə idarə edilməsi olmadan həyata keçirmək qeyri-mümkündür.

Yeni müəssisənin müvəffəqiyyətli fəaliyyət göstərməsi və inkişafı yüksək idarəetmə və yaxud xüsusi idarəetmə qruplarının təşkil edilməsi ilə əlaqədardır. Belə bir idarəetmənin və qruplarının təşkil edilməsinə müəssisənin istehsal təsərrüfat fəaliyyətinin xüsusiyyətinin təhlilindən sonra başlanır. Bu proses isə ilk olaraq məqsəd, vəzifələrin müəyyənləşdirilməsindən asılıdır.

Yeni müəssisənin idarə olunmasında vacib faktorlardan biri bacarıqların səmərəli şəkildə tətbiq olunmasıdır. Məhz bu tədbirlərin tətbiqi nəticəsində müəssisənin normal inkişaf etməsi və mövqeyinin möhkəmlənməsinə nail olunur. Lakin heç də bütün sahibkarlar dəyişikliyin zəruriliyin aydın şəkildə dərk edə bilmədiyi üçün mövcud mühitə uyğun olaraq hərəkət etməyi bacarmır (Niftullayev V.M., 2002: s.241).

Sahibkarlığın özü iqtisadi sistemin tərkibi olaraq bazar mühitində geniş təkrar istehsal, mövcud olduğu bölgənin işçilərinin rifahına təsir etmək gücü ilə qiymətləndirilməkdədir. Keyfiyyətcə fərqlənən yeni islahatlar yalnız sahibkarlığı inkişaf etmək deyil, sahibkarlığın fəaliyyəti üzrə iqtisadi-sosial səmərəliliyi yüksəltməyi nəzərdə tutmaqdadır.

Sosial sferanın sahibkarlıq cəhətləri və sahibkarlığın sosial nəticələri bir proses deyil, onların tədqiq edilməsi və proqnozlaşdırılması metodiki xüsusiyyətləri kəsb etməkdədir. O səbəbdən də sosial tələbat cəhətdən sahibkarlığın təşkili, idarə olunması, stimullaşdırılması eyni bir aspektdə baxış olmuş, sosial sahələri araşdıran alimlər üçün yeni bir mərhələdir. Ancaq sosial sahələrin sahibkarlıq obyekti kimi öyrənilməsivə mənimsənilməsi, insan tələbatı nöqteyi-nəzərdən ənənəvi tədqiqat obyekti hesab edilir.

Şirkətlərdə vergi yükü, investisiyanın qoyulması, bazara çıxarılmış mal və xidmətlərin ümumi göstəricisi, onların ümumilikdə istehsala təsiri, eyni zamanda ixracat qabiliyyəti bu müəssisələrin dövlət səviyyəli sosial məsələlərini həll etmək üçün imkan verir. Buna görə də hazırki strategiya şirkətlərin vergiyə cəlb olunmasında, onun vergi bazasının gücləndirilməsində və vergiyə stimul

yaradılması üçün sosial yükü nəzərə alaraq hazırlanmış tədbirlər sosial səmərənin təşkilatiiqtisadi problemləridir.

Sahibkarların əmək fondunun formalaşması üçün xüsusi çəkisi, maliyyə ehtiyyatlarının ümumi artımındakı rolu, ixracat üzrə payı başlıca prespektiv tənzimləmə obyekti kimi sosial məsələlərin həlli zamanı prioritet istiqamət olaraq formalaşır.

Sahibkarlığın sosial əhəmiyyəti sahələrin inkişaf etməsi və bazarın sözügedən sahə məhsul ilə doldurulması, birbaşa vətəndaşların gəlir və istehlakı üzrə təsir etmə gücü ilə ölçülür. O cümlədən, hər bir fiziki və hüquqi şəxs öz imkanlarını yuxarıda göstərilən tələbat növlərini ödəməklə fəaliyyətini qurur. İlkin mənada işsizliyin aradan qaldırılması və iqtisadi artımla əlaqə ümumilikdə makroiqtisadi sosial səmərə olaraq qəbul edilir.

İş yerlərinin açılması iqtisadiyyatın təşəkkülü və formalaşması mərhələsində, dövlətin sosial funksiyasını yerinə yetirə bilməyəcəyi şəraitdə mühüm modeldir. Sosial səmərənin dəyərləndirilməsi bizcə, aşağıda göstərilən istiqamətlər üzrə hər bir sahibkarın növünə uyğun axtarılmalıdı. Ancaq bu səmərə ümumilikdə ayrı-ayrı sahə strukturundan aslı olmayan tələbat sistemi, həmçinin onun ödənilməsi üçün olmalıdır.

Tələbat sistemi mövcud iqtisadi proseslərin keyfiyyətiylə xüsusilə bağlıdır. Əgər mövcud tələbat mütərəqqi, həmçinin struktur cəhətdən optimaldırsa, qütbləşmə aşağıdısa, o zaman orta təminat səviyyəsində vətəndaşların sayı çoxdusa, o zaman iqtisadi fəaliyyət sosial baxımdan daha səmərəlidir. Bu istiqamətləri aşağıda göstərilən kimi qruplaşdırmaq olar:

1. Sahibkarlıq və məşğulluq səviyyəsi yüksəldikcə əhalinin təminat səviyyəsi artır, onun tələbat normasına yaxınlaşma dinamikası kəmiyyət və keyfiyyət baxımdan təkmilləşir.

Bu baxımdan qeyd edə bilərik ki, sahibkarlıq fəaliyyətinin inkişafı əhalinin məşğulluq səviyyəsinə birbaşa təsir göstərir.

Ölkə üzrə əhalinin məşğulluq səviyyəsi 2015-2018-ci illər ərzində inkişaf dinamikası ilə müşahidə olunmuşdur. Burada Azərbaycan ərazində əhalinin əsasən qeyri-dövlət mülkiyyət forması üzrə məşğulluğunun üstünlüyünü görə bilərik.

2. Sahibkarların sayı artdıqca bazarda məhsul çeşidi və məhsul təklifi çoxalır, məhsulun qiyməti aşağı edirilməklə əhalinin məcmuu tədiyyə qabiliyyəti keyfiyyəti yaxşılaşır.

3. Sahibkarlığın özü natural və mübadilə ilə istehsalçı tələbatını, həmçinin onunla əlaqəli muzdlu işçilərin yaşayış səviyyəsini, yoxsul insanların güzəranını yaxşılaşdırmaq məqsədilə bölgü və yenidən bölgü mexanizmini fəal struktur şəklində inkişaf etdiririr.

4. Sahibkarlıq fəaliyyəti ölkənin iqtisadi fəaliyyətdə birbaşa qarışmasın məhdudlaşdırır, dövlərdə himayəçilik siyasətin, onun monetary, həmçinin fiskal siyasətinin beynəlxalq səviyyələr üzrə uyğunluğu, eyni zamanda tənzimləmə funksiyasını əhəmiyyətli təşkil etmək üçün imkan verir.

Qeyd olunan yuxarıdakı istiqamətlər konseptual olaraq sahibkarlığın sosial səmərəsini dəyərləndirmək, təhlil və proqnozlaşdırmaq metodalrını hazırlamağa imkan yaradır. Sosial prioritetlər ümumilikdə iqtisadi fəaliyyətin xüsusi istiqamətlərini, əsas resurs potensialını müəyyənləşdirərək iqtisadi inkişaf konsepsiyalarının sosialyönlülüyünü təmin edir.

Sahibkarlıq fəaliyyətinin iqtisadi siyasətin tərkibindəki sosialyönlülük bu fəaliyyətin prinsipləri ilə müəyyənləşməkdədir. O cümlədən, sosialistiqamətli iqtisadi siyasət ümumilikdə iqtisadi strategiyanın əsas həlqəsinə çevrilir. Bu cəhətdən sosialistiqamətli sahələrin təsnifatı formalaşdırılır. Sosialistiqamətlilik səhiyyə, mənzil, başqa insan tələbatını ödəyə bilən sahələrin inkişafı üçün yönəldilir. Sosial səmərə bu tələbatın kompleks ödənilməsinin strukturlarının səmərəli şəkildə təşkilinə yönəldilir. Səmərə funksional cəhətdən müxtəlif sahələrin səmərəsinə çevrilməkdədir.

Sahibkarlığın sosial aspektlərin gücləndirmək bu fəaliyyətin birbaşa rəqabət mühiti şəraitindəki işçi qüvvəsinin səmərəli istifadə olunması yolları ilə mümkündür. Əmək haqqının yüksəldilməsi işçilərinə müalicə, istirahət

hüquqlarının mühafizəsi üçün həmkarlar təşkilatının qurulmasına, həm firmada əmək haqqı Tələbat ilə sahibkarlığın uzlaşması, tələbatların məhsulvə xidmət üzrə ödənilmə dərəcəsi, sahibkarın ərazi strukturu, idxal və ixracın marketinq strukturunun olması, ərzaq, qeyri-ərzaq, xidmətlər, əməliyyatlar, ərzaq bazarında istehsal və sosial xidmədə, bank və sığorta xidmətindı, sahibkarların marketinq strukturunda, qeyri-ərzaq bazarı fondunun yaradılması üçün, eyni zamanda müəssisələrdə əmək haqqı fondun sosial müdafiə fondu üzrə ödəmələrinin artımasına şərait yaradır. İqtisadiyyatda məşğul olan şəxslərin dövlət sektorunda mütləq sayı azalmaqdadır, qeyri-dövlət sektorunda da artır.

# III FƏSİL. AZƏRBAYCAN İQTİSADİYYATININ ƏN VACİB SAHƏSİ KİMİ İNNOVATİV SAHİBKARLIĞIN FORMALAŞMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 3.1. Azərbaycan iqtisadiyyatında innovasiya fəaliyyətinin mahiyyəti, təsnifatı və tətbiqi

İnnovasiya iqtisadiyyatının mahiyyəti innovasiya fəaliyyətinin aktivləşdirilməsidir. İnnovasiya infrastrukturunu inkişafa yönəltmədən innovasiya fəaliyyətini təkmil səviyyəyə çatdırmaq deyə bilərik ki, qeyri-mümkündür. Bu isə ilk növbədə Azərbaycanda qeyri-neft sahəsinin inkişaf etdirilməsi, biliyə əsaslanan elmtutumlu texnologiyaların və sahələrin inkişaf etdirilməsidir.

Daxili iqtisadiyyatda islahatlar aparılması şəraitində vacib məsələlərdəndir ki, şirkətlərin, müəssisələrin, firmaların, elmi təşkilatların innovasiya fəallığı nəzərə çarpacaq dərəcədə təkmilləşdirilsin. Bu mərhələdə innovasiyanın inkişaf etdirilməsinin fərqli cəhəti daha çevik istehsalata və proqressiv texnoloji proseslərə tez bir zamanda keçilməsidir. Bu isə dünya standartlarına cavab verən və rəqabətqabiliyyətli məhsul istehsal etməyə şərait yaradır.

Bu gün Azərbaycanda iqtisadiyyatın qeyri-neft sahəsinin əhəmiyyəti get-gedə artmaqdadır. Sahibkarlıq sektorunda bunlar rəqabətə davamlı məhsullar istehsalı ilə məşğul olan iri və orta müəssisələrdir. Bu sektora ölkə tərəfindən investisiyalar yatırılır. Dövlət tərəfindən innovasiya fəaliyyətinə göstərilən dəstək innovasiya strukturunun və xidmətlərinin lazım olan dərəcədə inkişaf etməməsinə əsasən çox vaxt öz əhəmiyyətini lazımı qədər vermir.

Xarici bazarlarda ölkənin rəqabətə davam gətirməsi məqsədilə ilk olaraq innovasiyalı inkişafının təmin olunması, beynəlxalq səviyyədə münasibətlər obyekti olaraq həyata keçirilməsi onun başlıca şərtləndirici amillərindəndir.

Ümumiyətlə, inovvasiya faəliyyətlərinin artırılması elə də vacib deyil, onun başlıca prinsipi iqtisadi proseslərin xüsusi hissəsi olmaqla maliyyə, innovasiya, sosial və s. məqsədlər üçün istifadə edilə bilməsidir.

İnnovasiya prosesinin inkişafı innovasiyanın resurs imkanlarından, həmçinin həmin innovativ texnologiyaların effektiv şəkildə təsiri ilə tətbiq olunur. Bu səbəbdən, innovasiya proseslərinin 2 hissəyə ayırmaq daha məqsədə uyğun hesab olunur (Qasımov İ.H., Cəbiyev F. Q., 2017: s.107):

- İnnovasiya müddətinin hər mərhələsi üzrə inkişafında innovativ infrastrukturun və resursun mövcud olması.

- İnnovasiya prosesi zamanı yeniliklərin mərhələlərarasında keçidi üçün onların hərəkətetmə sürətinin mövcudluğu.

İnnovasiya sahibkarlığı faəliyyətini gerçəkləşdirmək məqsədilə ilk olaraq ideya irəli sürülməsi vacibdir. İdeyanın yaranması üçün əsas təkan verici qüvvə rolunu şəxsi təcrübə, bacarıqlar və bilik oynayır. Buna baxımdan da istənilən innovasiya sahibkarlığı fəaliyyəti həmişə hər hansı ideyaya əsaslanır. Lakin, innovasiya sahibkarlığı üçün düzgün, dəqiq bir ideyanın seçimi xüsusi əhəmiyyət daşıyır. Seçilən ideya layihənin gələcək fəaliyyətinin uğurlu olub-olmamasının təminatçısı hesab edilir. Yeni axtarılan ideyalar hər zaman innovasiya biznesinin dövlətin elmi və texnoloji tərəqqisinin başlıca hərəkət verici qüvvəsi qismində çıxış edir.

Ümumilikdə götürdükdə innovasiya proseslərində nəticəyə gəlmək mürəkkəb proses adlanır. Onun da həlli aşağıda göstərilən müddəaları əhatə edir (Qurbanov N.Ə., 2013: s.38):

1. Əlavə əmək və maddi xərclərin çəkilməsi, innovasiya fəaliyyətinin reallaşdırılmasını vacib edən kapital qoyuluşları;

2. İnnovasiyanın tətbiq edilməsi zamanı innovasiyanın subyektlərindən alınmış iqtisadi effekt nəticəsində əlavə xərclərin çəkilməsi.

İinnovasiya prosesini şərtləndirən əsas cəhətləri aşağıdakı kimi qeyd etmək olar (Gerguri Sh., Rexhepi G., Ramadani V., 2013: p. 7):

1. Qarşıya qoyulmuş məqsədə çatmaq üçün ilk olaraq qeyri müəyyən istiqamətlərin və yüksək risk dərəcəsinin mövcudluğu:

2. Dəqiq proqnozların qiymətləndirilməsi mexanizmlərinin mümkün olmaması:

3. İnnovasiya prosesində iştirakçıların mənafeyini qorumaq məcburiyyəti:

4. İqtisadi münasibətlər mühitində yarana biləcək gərginliklərin aradan götürülməsi.

İnnovasiya sahibkarlığına nəzər yetirdiyimiz zaman görərik ki, istehsalçıların istehsal, marketinq, elmi texnoloji fəaliyyətləri, həmçinin bazar tələbatının ödənilməsinə yönəlmiş prosesləri təşkil edir.

İnnovasiya sahibkarlığının həyata keçirilməsi prosesinin müxtəlif yolları var. Bu halda konkret bir səmərəli istiqamətin müəyyən olunması iqtisadi şərait, rəhbərin səriştəliliyi, şirkətin potensialı və s. kimi amillərdən asılıdır. Bununla da, daima uğur qazanmaq üçün qarşıdakı maneələrin və müqavimətlərin aradan qaldırılması vacibdir. Buna baxımdan da, innovasiyaları istehsal, insan, sosial, maddi və s. amillər üzrə xərclər sərf etmədən həyata keçirmək qeyri-mümkündür.

Ölkəmizdə Milli İnnovasiya Sisteminin (MİS) inkişafına sistemli şəkildə yanaşmanın mövcud olmasına ehtiyac var.

Yaradılan innovasiya infrastrukturunun digər elementləri və texnoparklar sıx əməkdaşlıq, informasiya mübadiləsi deyə bilərik ki, yox dərəcəsindədir. Hər bir struktur ayrı-ayrılıqda fəaliyyətdədir və birinin digərinin işindən xəbəri yoxdur. Bu səbəbdən də işlərdə təkrarlanmalar yaranır. İnnovasiya ilə bağlı proseslərin iştirakçıları arasında əlaqələrin genişləndirilməsi, bazarın tələblərinə vaxtında cavab vermək və rəqabətqabiliyyətlilik bütün bu təşkilatların səmərəlilik və effektivlik göstəricilərini artıracaqdır.

Məqsədyönlü siyasi tədbirlər innovasiya ilə bağlı proseslərin inkişafına daha da təkan verəcəkdir. Bu gün sabit iqtisadi artım üçün üçün Azərbaycanın ehtiyat və mövcud imkanlarını birləşdirmək lazımdır. Bu eyni zamanda fundamental və tətbiqi elmlər arasında olan mövcud əlaqələrin inkişaf etdirilməsi, digər tərəfdən baxıldıqda isə innovasiyalı məhsulun istehsalı və bazara yeridilməsi halında mümkündür. Dövlətin innovasiya sisteminin inkişaf etdirilməsinin prioritet istiqamətləri sənaye və əqli mülkiyyət bazarının inkişaf mexanizminin təşkil edilməsidir.

İnnovasiya infrastrukturu daimi olaraq inkişaf edir, onun yeni obyektləri təsis edilir. Hazırki dövrdə innovasiya sisteminin infrastrukturuna texnoparklar, innovasiya kadr hazırlığı mərkəzləri, texnologiya transferi mərkəzləri, vençur fondları, innovasiya texnologiya mərkəzləri, biznes-inkubatorlar, və d. daxildir.

Baxmayaraq ki, Azərbaycanda innovasiya sahəsində bir çox normativ və aktlar qəbul olunmuşdur, lakin indiyə kimi "innovasiyalar barədə", "müəssisələrin innovasiya fəaliyyəti barədə", "elmi-texniki siyasət barədə", innovasiya inkişafında xüsusi rola malik qanunlar və rəsmi sənədlər qəbul olunmamışdır. İnkubatorların, texnoparkların, innovasiya mərkəzlərinin, lizinq, texnopolis və başqa təşkilatların innovasiya və normativ infrastrukturunun hüquqi bazasının formalaşması üzrə iş sona qədər yerinə yetirilməmişdir. Habelə, regional səviyyədə innovasiyanın potensialının möhkəmləndirilməsi məsələləri həll edilməmiş olaraq qalmışdır (Hüseynova A.D., 2015: s.140).

Ölkəmizdə innovasiya ilə əlaqədar proseslərin təmin edilməsi üçün təşkilatlarda innovasiyaların informasiya bazasının yaradılması və innovasiya menecmentinin öyrədilməsi lazımdır.

İnnovasiya sahəsində strateji və taktiki siyasətdə aşağıdakılar nəzərə alınmalıdır (Atakişiyev M., Süleymanov Q., 2014: s.29):

- normativ-hüquqi bazanın təkmilləşdirilməsi;
- innovasiya tətbiqinin üsullarının təkminləşdirilməsi;
- dövlət tərəfindən maliyyə dəstəyi;
- vençur maliyyələşmə sisteminin inkişaf etdirilməsi;
- innovasiya sahəsində kiçik, orta və iri biznesin subyektlərinin birgə fəaliyyətinə kömək və onun stimullaşdırılması;
- innovasiya infrastrukturunun genişləndirilməsi: texnoparklar, biznes-inkubatorlar, nanotexnologiya mərkəzləri və və s.

Bütün bunlar ölkəmizdə innovasiya fəaliyyətinin kompleks sisteminin yaradılmasının əhəmiyyətini şərtləndirir. Eyni zamanda, müasir dövrdə elm və elmtutumlu istehsalın genişləndirilməsinin daha yeni formaları araşdırılır. Qeyd

edilən məsələlərin həlli üçün texnoparkların yaradılması və inkişafı əsas istiqamətlərdəndir.

Bu səbəbdən innovasiya subyektləri şəbəkəsinin mahiyyəti elmə istinad edən biznesin (sahibkarlıq fəaliliyətinə) inkişafına istiqamətlənmişdir.

Əgər bir müəssisə yuyulduqdan sonra ütülənməyəehtiyac qalmayacaq parçalar istehsal edirsə, yumurta sevməyən uşaqların belə diqqətini çəkəcək və yumurtanı sevərək yemələrinə səbəb olacaq maraqlı formalara salırsa, xəstəliklərə qarşı qoya biləcək toxumlar hazırlayırsa, bu zaman innovasiya baş verir. Bundan əlavə, xəstəxanaların müayinə olunan xəstələrinin müayinə nəticələrini öz sosial şəbəkələrində yayımlaması belə innovasiya sayıla bilər.

Yenilik mənasına gələn innovasiyada yeni və kreativ fikirlər nəticəsində istehsal edilən məhsullar və ya xidmətlər digərlərini rəqabət mühitində ötüb keçərək daha çox müştəri əldə edir. Misal üçün Nestle firması Türkiyədən aldığı fındığı istehsal prosesindən keçirərək və dəyər zincirinə qataraq dəfələrlə artıq pul qazanır.

Son zamanlar texnika və texnologiyanın, elmin sürətli inkişafı, eləcə də cəmiyytin durmadan artmaqda olan yeniliklərə tələbatı ilə əlaqdar olaraq innovasiya sürətli şəkildə daha çox sahibkarlıq fəaliyyətinin bölünməz hisssinə çevrilməkdədir.

Azərbaycanın inkişafının mütləq şərti olaraq innovasiya inkişafı yoluna keçməsi ölkə ərazisində innovasiyanın inkişafı bölgələrinin yaradılmasını nəzərdə tutur. İnformasiya və maliyyə bazarlarının çox əlverişli olması başlıca inkişaf amilinə çevrilir. Qərarların qəbulu mərkəzlərinin kommunikasiya cəhətdən yaxınlığı, kontaktların sıxlığı da əsas inkişaf amillərinə çevrilir. Beləliklə, ölkəmizin innovasiya sisteminin regional modullar bazasında inkişaf etdirilməsi məqsədəuyğun hesab edilir.

Son illər texnikanın və elmin güclü inkişafı, həmçinin cəmiyyətin bu yeniliklərə artmaqda olan tələbatıyla əlaqədar olaraq innovasiya get-gedə daha da çox sahibkarlıq fəaliyyətinin ayrılmaz bir hissəsinə çevrilməkdədir (Qasımov F.H., Nəcəfov Z.M., 2009: s.235).

İnnovasiya sahibkarlığının inkişafının zəruriliyi aşağıda göstərilən amillərlə şərtlənir:

1. istehsalın inkişafının intensiv amillərinin güclənməsiylə. Bu, iqtisadi fəaliyyətin sferalarında ETT-nin tətbiq edilməsinə imkan verir;

2. yeni texnikanın işlənməsi və tətbiqinin səmərəliliyinin yüksəldilməsində elmin müəyyənedici roluyla;

3. yeni texnikanın yaradılması, onun mənimsənilməsi müddətinin əhəmiyyətli dərəcədə azaldılması və istehsalın texniki səviyyəsinin yaxşılaşdırılması zəruriliyi ilə;

4. səmərələşdiricilərin və ixtiraçıların kütləvi yaradıcılığının inkişaf zəruriliyi ilə;

5. elmi-texniki istehsalın spesifik xüsusiyyətiylə. Bu, ozünü nəticələrin qeyri-müəyyənliyində, riskin mövcudluğunda, mənfi nəticələrin alınmasında və tədqiqatların çoxvariantlılığında göstərir;

6. yeni məhsulların mənimsənilməsi zamanı müəssisə xərclərin artmasıyla;

7. texnologiyaların və texnikanın mənəvi cəhətdən sürətli aşınmasıyla;

8. texnologiyaların və yeni texnikanın sürətli tətbiq edilməsinin obyektiv zəruriliyi ilə.

Müasir iqtisadiyyatda innovasiya sahibkarlığı dövlətin iqtisadi inkişaf potensialının innovasiyaları işləyib hazırlayanların yaradıcılıq qabiliyyətlərinin kommersiyalaşdırılması sayılır. İnnovativ sahibkarlıq mənfəət qazanmaq üçün yeni texnologiyaların, texnikanın, xidmət və əmtəələrin işlənib hazırlanması, istehsala tətbiq edilməsi üzrə fəaliyyətdir (Əliyev T.N., Babayev L.B., 2013: s.28).

İnnovasiya sahibkarlığının təsərrüfat fəaliyyətinin effektiv subyekti kiçik innovasiya müəssisələri hesab edilir. KİM, ümumilikdə ölkə iqtisadiyyatının inkişafı üçün, bununla yanaşı yeni texnika hazırlayanların, innovasiya yaradıcısı olan şəxslərin tələbatının qarşılanması üçün xüsusi əhəmiyyət kəsb edən innovasiya fəaliyyətinin xüsusi təşkilati formasını özlüyündə əks etdirir.

Sahibkarlıq fəaliyyəti praktikasına innovasiyaları tətbiq etdikdə innovasiya prosesini ləngidən, yaxud sürətləndirən amillər aşağıdakılardan ibarətdir:

- elmi-texniki;

- maliyyə;

- hüquqi;

- təşkilati-idarəetmə;

- sosial-psixoloji;

- mədəni;

- siyasi.

Kiçik sahibkarlıq innovasiya texnologiyalarının effektiv tətbiqi, inkişafı üçün əhəmiyyətli rola malikdir. Kiçik sahibkarlıq bazardakı dəyişikliklərə adaptasiya olmaq qabiliyyəti gostərir ki, bu, ona mütərəqqi texnologiyaların uzunmüddətli və dayanqlı olmasına şərait yaradır. Kiçik istehsalın başqa-başqa istehsal həlqələrində gerçəkləşdirilən innovasiyalar maliyyə investisiyaları, istismar xərcləri tələb etmirlər. Kiçik sahibkarlıq subyektləri tərəfindən idarəetmənin operartiv olması yeni texnologiyaları sürətli formada təkmilləşdirməyə, həmçinin tətbiq etməyə köməklik göstərir. İstehsalın böyük olmayan həcmiylə əlaqədar yeni istehsala keçidə görə itki riski o qədər də böyük olmur.

İnnovasiya sahibkarlığının əsasını nəzərdən keçirdiyimiz zaman texnoloji ukladlar konsepsiyasını haqqında danışmaq yerinə düşərdi. Texnoloji uklad-bir-biriylə bərabərxarakterli texnoloji əlaqələrlə bağlanan texnoloji məcmu toplusudur. Hər sonrakı texnoloji uklad prinsipcə yeni “komplektinin” xidmət və əmtəə istehsalçılarının sərəncamına verdiyi vaxtdan başlayır.

Hal-hazırda inkişaf edən ölkələrdə V uklad texnologiyalar hakimdir və VI texnologiya ukladı formalaşmaqdadır.

IV ukladın əsas xarakterik xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1. istehsalın kompleks mexanikləşdirilməsi;

2. yeni maşın bazası;

3. ixtisaslı işçi qüvvəsinin geniş istifadə edilməsi;

4. əsas texnoloji proseslərin avtomatlaşdırılması;

5. elektroenergetikanın üstün inkişafı;

6. istehsalın ixtisaslaşmasının artımı;

7. əhalinin uzunmüddətli istifadə edilən əmtəələrin kütləvi tələbatıyla fərqlənən yeni istehlak tipinə, yəni sintetik malların istifadəsinə keçid.

V texnoloji ukladı fərqləndirən cəhətlər şağıdakılardır:

1. proqram təminatının;

2. aviasiya sənayesinin;

3. hesablama texnikasının;

4. robotqayırmanın;

5. telekommunikasiyaların;

6. optik liflərin inkişafı hesab olunur.

VI ukladın əsas xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1. nanotexnologiyaları;

2. fotonikanı;

3. biotexnologiyaları;

4. aerokosmik sənayeni;

5. optoelektronikanı aid edə bilərik.

Azərbaycan yeni ukladın formalaşması KİM-in üstünlüklərini təmin edən elementin texnoloji və texniki bazanın prinsipial olaraq dəyişməsiylə əlaqdardır. Müəssisələrin çoxda böyük olmayan ölçüləri, dar ixtisaslaşması onların daha ucuz qiymətə və sürətli şəkildə silahlaşmasına, minitexnikanın tətbiq edilməsinə hesablanan yeni texnologiyaların aprobasiyasına və istifadəsinə şərait yaradır. Bu baxımdan kiçik sahibkarlıq müəssisələri məhdud olmayan resurslara sahib olsa belə, ənənəvi olaraq ETT-nin istiqamətlərinin reallaşdırılmasında əhəmiyyətli rola malikdir. Bu zaman dar istiqamətli tədqiqatların inkişaf etməsi üçün şərait yaranır.

Fərqli təşkilati hüquqi formaya məxsus subyektlər arasında yeniliklərin mübadiləsini innovasiya bazarının mexanizmi özündə ehtiva etdirir. Bu da innovasiya sahibkarlığının stimullaşdırılmasına dövlət siyasətinin aşağıda göstərilən əsas istiqamətlərini öncədən müəyyən etməyə şərait yaradır (Tağıyev A.H., Aslanzadə İ.A., 2017: s. 46):

1. vencur kapitalına sahib kiçik innovasiyalı təşkilat və müəssisələrə dövlət dəstəyi ilə bağlı tədbirlər;

2. dövlət sektorundan özəl sektora doöru texnoloji keçid şərtləri;

3. innovasiya sahibkarlığının normativ və hüquqi tənzimlənməsi.

İnnovasiya sahibkarlığının əsas məqsədləri, həyata keçirilməsi forma, müddət və üsulları hər şeydən öncə ayrı-ayrı təsərrüfat subyektlərinin, ümumilikdə cəmiyyətin resurs imkanlarıyla müəyyən edilməlidir. İnnovasiya sahibkarlığının gedişatında təsərrüfat subyektləri tərəfindən seçilmiş məqsəd və vəzifələrin ümumi məcmusu və bu məqsədlərin tətbiq edilməsi üzrə innovasiya siyasətini müəyyənləşdirir.

Son illər ərzində respublikamızda innovasiya sahibkarlığından geniş istifadə olunur. Müəssisələrin modernləşdirilməsi, mütərəqqi və müasir texnologiyaların tətbiq edilməsi, beynəlxalq bazarda rəqabətə davam gətirə bilən məhsulların istehsal edilməsi innovasiya sahibkarlığından çox asılıdır.

Ölkəmizdə sənayenin, xalq təsərrüfatının gələcək inkişafı innovasiya sahibkarlığına əsaslanır. Ona görə ki, iqtisadi artımın struktur dəyişiklikləri müasir texnoloji proseslərsiz qeyri-mümkündür. Ölkəmizdə istehsal sahələrinin, həmçinin iqtisadiyyatın bütövlükdə inkişafında hərəkətverici qüvvə kimi zəngin təbii sərvətlərə, müəssisələrin fəaliyyətinin düzgün təşkilinə, innovativ texnologiyalara önəm verilir.

İnnovasiya sahibkarlığı müxtəlif yollar vasitəsilə həyata keçirilə bilər. Konkret olaraq daha əhəmiyyətli bir yolun seçilməsi məhsul bazarı, firmanın potensialı və rəhbərliyin səriştəlilik dərəcəsi, texnologiya kimi amillər və şərtlərdən asılıdır. Fərqli qruplar tərəfindən həyata keçirilən çoxrəqəmli və çoxüzlü proseslərdə təşkilatlar və bölmələr arasında qarşılıqlı təsirin rolu böyükdür. Bununla bərabər, hər zaman uğur qazanılması müqavimətin və maneələrin aradan qaldırılması ilə əlaqədardır. İnnovasiyaların inkişafı inadsız və təşəbbüssüz, habelə istehsal, sosial və təşkilati amillər üzrə iri xərclər çəkmədən qeyri-mümkündür.

## 3.2. İnnovativ layihənin qiymətləndirilməsi və onun sosial-iqtisadi nəticələrinin təkmilləşdirilməsi

Hazırda ölkəmizdə makroiqtisadi və siyasi stabillik, yaradılan biznes mühiti Azərbaycanın bu regiondakı səmərəli rolunu səciyyələndirir. Bu cəhətdən respublikada sahibkarlığa meyili olan hər bir fərdin şəxsi potensialını göstərməsi üçün münasib şərait qurulur. Hazırki dövrdə sadəcə iş yerini tapmaq deyil, habelə iş yeri yaratmağa cəhd edən şəxsə dövlət tərəfindən bir çox tədbirlər yardımı ilə, uyğun qanunvericiliyin tətbiq olunması yolu ilə köməklik göstərilir.

İqtisadiyyatın, habelə özəl sektorun inkişafı üzrə tətbiq edilən sistemli formalı islahatlar, eləcə də sahibkarların güzəştli kreditlərlə təmin edilməsi bunun bariz nümunəsidir.

Ölkədə biznesə başlama prosedurlarının sadələşdirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sağlam rəqabətin təmin olunması, sahibkarlığa dövlət dəstəyinin stimullaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, sahibkarların maarifləndirilməsi və başqa tədbirlər nəticəsində 2018-ci il ərzində Ümumi Daxili Məhsulun həcmində özəl sektorun xüsusi payı 84 faizə yaxın, məşğulluqda payı isə 76 % olub. Qeyri-neft sahəsinin inkişafı sahəsində görülən işlər, ölkədə yeni xidmət və istehsal sahələrinin yaradılmasına təkan verib, investisiyavə biznes mühitinin davamlı olaraq yaxşılaşdırılmasında şərait yaradıb. Beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da ölkəmizdə qurulmuş əlverişli biznes mühiti müsbət qiymətləndirilmişdir.

Ölkə başçımızın siyasi gücü, müntəzəm dəstəyi sayəsində aparılmış ümumi iqtisadi islahatlar digər nüfuzlu beynəlxalq reytinqlərlə bərabər, “Doing Business 2019” adlı hesabatın da bütün göstəricilərini əhatə etmişdir. Nəticə etibarilə 2017-ci il, 2018-ci ilin isə ilk dörd ayında adəcə bu hesabata əsasən 30-a qədər normativ hüquqi akt qüvvəyə minərək 70-dən artıq islahat tədbiri reallaşdırılmış və qeydə alınması məqsədilə “Doing Business” komandasına təqdim edilmişdir.

Aparılan islahatlar nəticəsidir ki, sahibkarların və vətəndaşların məmnunluğunun yüksəldilməsi, xidmət göstərilən sahədə şəffaflığın təmin edilməsi ilə yanaşı, fərqli sektorlara əsasən inzibati prosedurların sayı, xərcləri

minimuma qədər azaldılmış, dövlət xidmətlərinin göstərilməsində keyfiyyət amilinin daha çox yüksəlməsinə çalışıb və buna nail olunmuşdur.

Ölkə başçımızın rəhbərliyi ilə həyata keçirilmiş islahatlar “Doing Business 2019” adlı hesabatda Azərbaycanın reytinqdə yeni bir rekorda öz imzasını atmasına, həmçinin, bəzi indikatorlar üzrə öz mövqeyinin daha yüksək səviyyəyə qalxmasına imkan yaradıb. Belə ki, 31 oktyabr 2018-ci il tarixində Dünya Bankı tərəfindən yayılmış “Doing Business 2019” adlı hesabatda Azərbaycan dünyanın on ən islahatçı dövləti sırasına daxil olunaraq dünyada ən çox islahat aparan ölkə elan dilib. Yeni hesabatda respublikamızın mövqeyi 2017-ci il ilə müqayisə edildikdə 32 pillə yüksələrək 190 dövlət arasında 25-ci yerdə qərarlaşmışdır. Bir sıra nüfuzlu ölkələri geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələrinin arasında yüksək mərtəbədə yer tutmuşdur.

“Doing Business 2019” adlı hesabatda deyilir: “Mərkəzi Asiya və Avropa zonasına daxil olan Azərbaycan Respublikası ən yaxşı təkmilləşdirmə indikatorlarına sahib on ölkə arasında beynəlmiləl səviyyədə rekorda imza ataraq 8 sahə üzrə islahatlar apararaq, 2017-2018-ci illəri ərzində biznes fəaliyyətinin daha çox sadələşdirilməsini təmin etmişdir” (“DOING BUSINESS 2019”, 2019: p.13).

Sahibkarların maliyyə resurslarına çıxmaq imkanlarının artırılması məqsədilə, “Kredit büroları haqqında” və “Daşınan əmlakın yüklülüyü haqqında” qanunlara uyğun olaraq, 2018-ci ildə Azərbaycanda Kredit Bürosu, mart ayında isə Daşınan Əmlakın Yüklülüyü Reyestri fəaliyyətə başlayıb. Nazirlər Kabinetinin 2018-ci il tarixli qərarıyla kiçik, orta, iri və mikro sahibkarlıq subyektlərinin bölgüsü təsdiq edilib. Ölkə başçımızın 25 dekabr 2018-ci il tarixli fərmanına əsasən, kiçik, mikro və orta sahibkarlıq subyektlərinin qaz, su təchizatı şəbəkələrinə və tullantı sularının axıdılması sistemlərinə qoşulması ilə bağlı texniki şərtlərin haqq ödənilmədən verilməsi, sifarişlə sistemlərin gücləndirilməsi və qoşulma haqqı ilə bağlı ödənişin tələb edilməməsi müəyyənləşdirilmiş və prosedurlar təkmilləşdirilmişdir.

Eyni zamanda ölkə başçısının 2018-ci il 28 dekabr tarixli fərmanıyla sahibkarların ekspertizadan keçirilməsi, tikinti obyektlərinin layihələndirilməsi, tikintisinə icazə verilməsi, tikinti zamanı nəzarətin təşkili, tikintisi başa çatmış

obyektlərin istismara icazə verilməsini sadələşdirilmiş qaydaları da təsdiq edilib. Bununla belə, yerli istehsalın artırılması məqsədilə, dövlət ixracatında yerli istehsala üstünlük verilib, kənd təsərrüfatının məhsullarının istehsalı və emalının stimullaşdırılması məqsədilə dəstək tədbirləri gücləndirilmişdir.

Keçən ilin əvvəlindən indiyə kimi Sahibkarlığın İnkişaf Fondu tərəfindən kredit təşkilatları vasitəsi ilə dəyəri 450 mln. AZN olan 887 sahibkara 131 mln. AZN, eləcə də 857 orta və kiçik həcmli layihəyə 24 mln. manat güzəştli kredit verilmişdir. Güzəştli kreditlərin 74 faizi aqrar sektorun, 26 faizi sənaye və başqa sahələrin, 66 %-i regionların, 34 %- isə Bakının qəsəbələrinin payına düşüb.

Sahibkarlıq infrastrukturunun təkmilləşdirilməsi istiqamətində böyük əhəmiyyətə malik addımlar atılmış, sahibkarlara əsas texniki dəstək göstərən sahələr formalaşmışdır. Vergi yükünün sahibkarlar üçün azaldılması istiqamətində müəyyən addımlar atılıb. Belə ki, əlavə dəyər və mənfəət vergisi dərəcələri və məcburi sığorta haqqı müəyyən qədər aşağı salınmış, həmçinin, kiçik sahibkarlıq subyektlərinin müəyyən qisminə vahid vergi tətbiq olunmağa başlanılmışdır. Sahibkarların maliyyə resurslarına çıxmaq imkanlarının artırılması məqsədilə, “Kredit büroları haqqında” və “Daşınan əmlakın yüklülüyü haqqında” qanunlara uyğun olaraq, 2018-ci ildə Azərbaycanda Kredit Bürosu, mart ayında isə Daşınan Əmlakın Yüklülüyü Reyestri fəaliyyətə başlayıb. Nazirlər Kabinetinin 2018-ci il tarixli qərarıyla kiçik, orta, iri və mikro sahibkarlıq subyektlərinin bölgüsü təsdiq edilib. Ölkə başçımızın 25 dekabr 2018-ci il tarixli fərmanına əsasən, kiçik, mikro və orta sahibkarlıq subyektlərinin qaz, su təchizatı şəbəkələrinə və tullantı sularının axıdılması sistemlərinə qoşulması ilə bağlı texniki şərtlərin haqq ödənilmədən verilməsi, sifarişlə sistemlərin gücləndirilməsi və qoşulma haqqı ilə bağlı ödənişin tələb edilməməsi müəyyənləşdirilmiş və prosedurlar təkmilləşdirilmişdir.

Görülən tədbirlər nəticəsində məşğul əhalinin iqtisadi fəaliyyət sahələri üzrə orta aylıq əmək haqqında da artım müşahidə olunmuşdur. Bunu aşağıdakı cədvəldən də görə bilərik.

**Cədvəl 4: İqtisadi fəaliyyət növləri üzrə orta aylıq əmək haqqı, manat (2015-2019)**

| İqtisadi fəaliyyət növləri | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 245,8 | 253,8 | 261,5 | 281,1 | 329 |
| Mədənçıxarma sənayesi | 2171,1 | 2807,2 | 3071,9 | 2964,2 | 3046,2 |
| Emal sənayesi | 527,9 | 542,9 | 554,0 | 554,1 | 613,4 |
| Elektrik enerjisi, buxar, qaz istehsalı, bölüşdürülməsi, təchizatı | 513,2 | 504,7 | 547,8 | 583,3 | 625 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 333,3 | 321,4 | 324,6 | 304,6 | 409,8 |
| Tikinti | 677,7 | 812,9 | 783,3 | 698,7 | 712,9 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 378,1 | 382,3 | 385,6 | 390,3 | 394,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 575,8 | 649,3 | 733,9 | 806,9 | 824,9 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 464,6 | 476,1 | 511,2 | 541,7 | 552,3 |
| İnformasiya və rabitə | 747,2 | 782,0 | 870,6 | 881,3 | 989,5 |
| Maliyyə və sığorta fəaliyyəti | 1210,9 | 1229,2 | 1387,7 | 1459,3 | 1685,8 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 308,2 | 337,0 | 354,6 | 422,5 | 544,5 |
| Peşə, elmi, texniki fəaliyyət | 752,4 | 886,5 | 1032,7 | 1054,7 | 1138,2 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 542,6 | 543,6 | 547,8 | 548,3 | 377 |
| Dövlət idarəetməsi, müdafiə; sosial təminat | 494,7 | 510,6 | 534,5 | 596,0 | 661,4 |
| Təhsil | 301,1 | 307,0 | 322,2 | 365,3 | 405,4 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 204,2 | 214,8 | 222,5 | 239,4 | 310,7 |
| İstirahət, əyləncə, incəsənət sahəsində fəaliyyət | 252,7 | 258,9 | 268,4 | 296,0 | 377,9 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 441,9 | 473,4 | 662,6 | 631,8 | 580,1 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (2019) məlumatları əsasənda müəllif tərəfindən tərtib edilmişdir

Verilmiş cədvəldən 2015-2019-cu illər ərzində mədənçıxarma sənayesində çalışan işçilərin orta aylıq əmək haqqında daha çox artım müşahidə edilmişdir. Bu isə birabaş olaraq mədənçıxarma sənayəsinin inkişafı ilə əlaqədardır.

Neft amilindən asılılığın aradan götürülməsi, iqtisadiyyatın şaxələndirilməsi ilə əlaqədar tədbirlər arasında kənd təsərrüfatı xüsusi yer tutur.

2018-ci il üzrə kənd təsərrüfatının qiymətlərlə dəyəri 7 mlrd. AZN təşkil etmişdir ki, bunun da 3,5 mlrd. AZN-ni heyvandarlıq, 3,6 mlrd. AZN-ni bitkiçilik məhsullarının payına düşmüşdür. 2019-cu ilin ilk 10 ayı müddətində kənd təsərrüfatının ümumilikdə məhsulu 2018-ci ilin müvafiq dövrüylə müqayisədə 7,3 faiz, eləcə də bitkiçilik məhsullarının istehsalı 12 faiz, heyvandarlıq məhsullarının istehsalı 3,3 faiz artmışdır (https://www.stat.gov.az/news/index.php?id=4269/, 2019). 2019-cu il iqtisadiyyatın qeyri-neft sahəsində istehsal edilmiş əlavə dəyər 3 faiz artıb. Əlavə dəyərin 6 faizi kənd təsərrüfatının payına düşmüşdür.

Bu uğurlar Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi və sosial siyasətin alternativsiz olduğunu, aparılan islahatların bütün təbəqələrin, eləcə də biznes subyektlərinin mənafelərini qoruduğunu bir daha göstərir.

1 sentyabr 2019-cu il tarixindən etibarən Azərbaycanda ən az əməkhaqqı 250 manata çatdırılıb, eləcə də dövlət sektorunda çalışanların maaşlarına 20-50 % artımlar olunub. Əmək, Əhalinin Sosial Müdafiəsi Nazirliyinin verdiyi açıqlamaya görə, ən az əməkhaqqının çoxalması Vahid Tarif Cədvəli üzrə olunan artımlar da nəzərə alınaraq 950 min şəxsin maaşının çoxalmasına imkan verib, dövlət sahələrində işləyənlərin ümumi maaşlarının 20-50 % artırılması isə 400 000 vətəndaşı əhatələyib.

Son illər ölkəmizdə aparılan iqtisadi islahatlar çərçivəsində innovativ fəaliyyətin stimullaşdırılması iqtisadi inkişafın sürətləndirilməsində vacib rol oynayır. Xüsusən Azərbaycan Respublikasının Prezidentinin "Milli iqtisadiyyat, iqtisadiyyatın başlıca sektorları üzrə strateji yol xəritələrinin təsdiq olunması haqqında" 2016-cı il tarixli 1138 saylı Fərmanı bu istiqamətdə aparılmış işlərə güclü təkan olmuşduq.

Strateji yol xəritələrinin müvafiq bəndlərinin icrası çərçivəsində aidiyyəti dövlət qurumları, o cümlədən Agentlik tərəfindən bir çox tədbirlər həyata

keçirilmiş, o cümlədən universitetlərdə və elmi-tədqiqat müəssisələrində aparılan elmi-tədqiqat işlərinin son nəticəsi olaraq yaradılan yüksək texnologiyaların iqtisadiyyatda tətbiqi üçün əlverişli şəraitin yaradılması, iqtisadi səmərəsinin artırılması üzrə aparılan işlərə dəstək məqsədiylə Agentliyin təşkilatçılığı və iştirakı ilə ölkəmizdə bu mövzuya həsr olunan üç beynəlxalq tədbir keçirilmişdir.

Vergi Məcəlləsinə edilən son dəyişikliklər ölkəmizdə innovativ sahibkarlığın inkişafına, biznes mühitinin möhkəmləndirilməsinə böyük stimul verir. Nümunələrdən biri kimi biznesdə startapların inkişafı məqsədilə yaradılan şəraiti göstərmək olar. Bu istiqamətdə ən önəmli stimul kiçik və mikro sahibkarlıq fəaliyyətiylə məşğul olan “startapların” fəaliyyət göstərməsi məqsədilə şəhadətnamə aldıqları gündən etibarən üç il müddətinə mənfəət və gəlir vergisindən azad edilməsidir (“Orta və kiçik sahibkarlar üçün vergi güzəştləri”, 2018: s. 2).

Biznes sahəsində startapların dəstəklənməsi yönündə bir sıra tədbirlər həyata keçirilmiş, startaplara investisiya qoyan bir çox fondlar və qurumlar yaradılmışdır. Buna nümunə olaraq, Azərbaycan Respublikası Yüksək Texnologiyalar və Rabitə Nazirliyi tabeliyində olan İnformasiya Texnologiyalarının İnkişaf Dövlət Fondunu göstərə bilərik.

Nazirlik “Startap Azərbaycan” layihəsini həyata keçirir. Həmin layihənin başlıca məqsədi ölkədə informasiya-kommunikasiya texnolgiyaları sahəsində investisiya mühitini gücləndirmək, daha yaxşı İKT və internet layihələrini üzə çıxarmaqdır (Azərbaycan Respublikasında orta və kiçik sahibkarlıq səviyyəsində istehlak məhsullarının istehsalına aid Strateji Yol Xəritəsi, 2016: s. 63).

Bildiyimiz kimi müasir iqtisadiyyatda startap-layihələr zəruri əhəmiyyətə malikdir. Yüksək ixtisaslı mütəxəssislərin bilavasitə yaratdığı və yaxud cəlb edildiyi bu startapların innovasiya prosesində, yüksək texnoloji innovasiya layihələrinin həyata keçirilməsində, innovasiya infrastrukturunun işlənməsi və tətbiq edilməsində rolu böyükdür.

Biznes qurumları tərəfindən startlapların fəaliyyətinə diqqət göstərilməsi, qarşılıqlı əməkdaşlıq əlaqələrinin yaradılması hər iki tərəfə, həmçinin, bütövlükdə iqtisadiyyatımıza faydalar gətirir.

Azərbaycanda innovasiya kapitalı üçün yüksək ixtisaslı kadrların hazırlanması, güzəştli vergitutma, zəruri infrastrukturun inkişafına istiqamətlənmiş investisiya siyasəti və başqa belə tənzimləmə vasitələri ilə müəssisələrin innovasiya laboratoriyalarının, istehsal sahələrinin təşkil edilməsi stimullaşdırıla bilər.

Müəssisənin innovasiya fəaliyyətinin iqtisadiyyata cəlb olunması ölkənin elmi və texniki potensialının yaxşılaşmasına, rəqabətqabiliyyətliliyinin mövcud amillərindən istifadə edilməsinin səmərəliliyinin yüksəldilməsinə, innovasiya prosesinin intensivləşməsinə, nəticədə Azərbaycanın beynəlxalq bazarda rəqabətqabiliyyətliliyinin yüksəlməsinə yardım edə bilər.

Azərbaycan Respublikasında sahibkarlığın inkişafının perspektiv istiqamətlərindən biri kimi innovasiya sahibkarlığına dövlət dəstəyinin həyata keçirilməsi təmin olunmalıdır. Belə ki, innovasiyalı sahibkarlıq fəaliyyətinin inkişafının və formalaşması baxımından bu istiqamətdə aşağıdakı tədbirləri həyata keçirmək üçün dövlətin bu vəzifələri yerinə yetirməsi məqsədə uyğun hesab edilir:

- İnnovasiya sahibkarlığı sahəsi ilə əlaqədar fəaliyyət göstərən sahibkarlara dəstək məqsədi ilə fəaliyyətlərini reallaşdırmaq üçün maliyyə yardımlarının edilməsi;

- Fəaliyyət sferası innovasiyalı məhsul istehsalı ilə əlaqədar olan qurumlara, ən əsası kiçik və orta ölçülü müəssisələrə vergi ilə bağlı müəyyən dərəcədə güzəştlərin tətbiq edilməsi istiqamətində mexanizimlərin yaradılması;

- İntelektual biliklərin, mülkiyyətin qeyri-qanuni şəkildə istifadə edilməsinin qarşısı alınması tədbirlərinin həyata keçirilməsi;

- Patentlərin hazırlanması;

- Kiçik və orta müəssisələrin qeydiyyat və müdafiəsinin təşkilinə dair yardımların təmin edilməsi;

- Hər hansı innovasiya risklərinin təminatı üçün siğorta mexanizmlərinin yaradılması prosesləri.

Ölkə iqtisadiyyatının sosial istiqamətdə təmin edilməsinin başlıca məqsəd kimi cəmiyyətin həyat səviyyəsinin yaxşılaşdırılması üzrə həm keyfiyyət həm də

ki, kəmiyyət baxımından buna nail olmaqdır. Bu məqsədə çatmaq üçün sahibkarlığın inkişaf perspektivlərinin müəyyən edilməsi və bu istiqamətdə aparılan əvəz olunmaz tədbirlərin, islahatların təsirliliyini və eləcədə onların səmərəliliyini artırmaqdan ibarət olmalıdır.

İnnovasiya sahibkarlığının xüsusiyyəti bazar şəraitində ondan ibarətdir ki, innovasiya sahibkarlığı iqtisadi funksiyanı yerinə yetirir, benəlxalq və milli səviyyədə istehsal praktikasının yayılmasına yardım etməklə kommersiya və qeyrikommersiya mübadiləsinə elmi və texniki nailiyyətləri cəlb edir. Bu cür sahibkarlığının mühüm fərqləndirici əsas xüsusiyyəti innovasiya subyektlərinin 2-li rolu hesab edilir. Bu da ondan ibarətdir ki, innovasiya məhsulu istehsalçıları müəssisələr eyni vaxtda həmin məhsulların istehsalçıları bazarında məhsulun alıcıları, habelə innovasiya məhsulunun satıcıları hesab edilirlər.

İnnovasiya məhsulunun satıcıları arasındakı rəqabət mübarizəsi innovasiya müəssisə rəhbərlərini istehsalın və yaxud göstərilən xidmətlərin səviyyəsini yaxşılaşdırmağa, istehsal xərclərini müəyyən qədər aşağı endirməyə, fəaliyyət effektivliyini yüksəltməyə can atmağa sövq edirlər. Nəticə etibarilə innovasiya bazarındakı rəqabət müəssisələrin innovasiya fəaliyyəti inkişafını təkmilləşdirir.

Ölkəmizdə sahibkarlığın inkişaf etdiirlməsinə dövlət himayəsini təkmilləşdirmək, sahibkarlara dövlət dəstəyi ilə əlaqədar tədbirlərinin səmərəsini çoxaltmaq, sahibkarlar tərəfindən İqtisadi İnkişaf Nazirliyinə dair məsələlərə aid olunan müraciətlərin cavablandırılmasında sistemlilik prinsipi yaratmaq və cavablandırmada operativliyə nail olmaq, həmçinin sahibkarlıq subyektlərinin lazımi hüquqi və iqtisadi informasiyayla təminatını yaxşılaşdırmaq üçün İqtisadi İnkişaf Nazirliyinin Telefon Məlumat Mərkəzi yaradılmışdır. Telefon Məlumat Mərkəzinin göstərdiyi xidmət ölkəmizin bütün ərazisini əhatələyir. Hazırda ölkənin istənilən ərazisindən, xaricdən mobil operatorlar vasitəsilə pulsuz olaraq sahibkarlığın inkişafına aid məlumatları Telefon Məlumat Mərkəzindən almaq mümkündür.

Sahibkarlığın inkişafı, biznes mühitinin yaxşılaşdırılması Azərbaycan Respublikası Prezidenti cəna İlham Əliyevin iqtisadi inkişaf strategiyasının

prioritet istiqamətlərindən biridir. Dövlət proqramlarının qəbul edilməsindən ötən müddətdə ölkədə sahibkarlığın inkişaf etdirilməsi, genişləndirilməsi, sahibkarlara dövlət dəstəyinin təkmilləşdirilməsi, sahibkarların hüquqlarının etibarlı şəkildə müdafiə mexanizmlərinin yaradılması ilə bağlı kompleks tədbirlər həyata keçirilmiş, respublikada güclü özəl sektor formalaşmış, investisiya və biznes mühiti daha da yaxşılaşmış və sahibkarların sayı çoxalaraq ölkə iqtisadiyyatının aparıcı qüvvələrindən birinə çevrilmişdir.

Sahibkarlıq sektorunun inkişafetmə göstəricilərinin dinamikası yerinə yetirilən iqtisadi islahatların uğurlu nəticələrinin təsdiqidir.

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişaf Fondu, "Azərbaycan İnvestisiya Şirkəti", Kənd Təsərrüfatı Nazirliyi yanında İnkişaf və Aqrar Kredit Agentliyi, AZPROMO, "Aqrolizinq" və başqa institusional mexanizmlər vasitəsi ilə özəl sektora göstərilmiş dəstək sahibkarlığın inkişaf etməsi baxımdan çox əhəmiyyətlidir.

Son illər ərzində sahibkarlığın inkişaf etməsinə dövlətin maliyyə dəstəyi yaxşılaşmış, güzəştli kreditlərin ümumi həcmi əhəmiyyətli dərəcədə çoxalmışdır. Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, bu sahəyə dövlətin qayğısının artırılması üçün Sahibkarlığın İnkişaf Fondunun vəsaitləri hesabına bugünə qədər ölkə üzrə layihələrinin dəyəri 5 mlrd. manat olan 35700-dən artıq sahibkara 2,3 mlrd. manat güzəştli kredit təqdim edilmişdir. Bu kreditlərdən istifadə edərək investisiya layihələrinin həyata keçirilməsi nəticəsində 166 minə yaxın yeni iş yeri açılmışdır. Veriln güzəştli kreditlərin 1 mlrd. manatı büdcə, 1,4 mlrd. manatı geri qaytarılmış vəsaitlər hesabına təmin olunmuşdur. Güzəştli kreditlərin 68 %-i aqrar sektorun, 32 %-i müxtəlif sənaye və başqa sahələrin inkişafına istiqamətləndirilmişdir. Verilmiş kreditlərin 75 %-i regionların, 25 %- ı Bakı qəsəbələrinin payına düşmüşdür (http://www.e-qanun.az/framework/41320, 2019).

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Son zamanlarda Azərbaycanda müşahidə olunan inkişaf və yüksəliş, iqtisadiyyatın sürətli artım tempi ölkədə həyata keçirilən və uğurlu alınan islahatların təzahürü olmaqla yanaşı, həm də sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir. Özəl sektorun inkişaf etməsi üçün dövlət səviyyəsində bir çox hüquqi, iqtisadi və təşkilati tədbirlərin görülməsi, biznesin fəaliyyəti üçün daha çox əlverişli şəraitin təşkil edilməsi üçün əsaslı islahatların aparılması ölkəmizdə sağlam əsaslar ilə təməli qoyulan sosial və iqtisadi inkişaf strategiyasının əsasə mahiyyətindən irəli gəlir.

Sahibkarlığın inkişafı ölkənin sosial-iqtisadi və siyasi sisteminin yenidən qurulmasının xüsusi amili olaraq çıxış edir. Sahibkarların fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılması üçün əsaslı formada islahatların aparılması da məhz dövlətdə reallaşdırılan iqtisadi inkişaf strategiyasının başlıca tələblərindən irəli gəlir.

Azərbaycan innovasiya sahibkarlığı sahəsində müvafiq tədbirləri yerinə yetirərək, dövlət innovasiya sahəsinin subyektlərinin fəaliyyətini genişləndirmək çəqsədilə müvafiq şərait yaradır. Azərbaycanın bütün sənaye sahələrində dövlət bu sahənin imkanlarından istifadə etməklə digər sahələrin, həmçinin tikintinin sosial və iqtisadi sferasının inkişaf etdirilməsinin stimullaşdırılmasını təmin edir. Lakin Buna baxmayaraq innovasiyanın inkişafında hələ də bir sıra çatışmazlıqlar var. Milli innovasiya sistem layihəsinin hazırlanıb ərsəyə gətirilməsi, onun tətbiq olunmasının gecikdirilməsi, bu sahədə xarici dövlətlərin təcrübəsinin zəif mənimsənilməsi, şirkət və müəssisələrin daha çox ənənəvi üsullar ilə işləməyə meylliliyi, mövcud sahəyə uyğun mütəxəssislərin sayının digər sahələrə nisbətən kifayət qədər olmaması, ÜDM-də innovasiya xarakterli məhsulun payının az olması, universitetlərdə innovativ texnologiyaların tətbiq edilməsinin aşağı səviyyədə mövcudluğu, innovasiyaların tətbiqi üzrə tədqiqatların aşağı səviyyədə olmağı, bu fəaliyyətin əksər hallarda Azərbaycan Milli Elmlər Akademiyasının tərəfindən aparılması, mövcud sahə üzrə qanunvericilik bazasının zəif olması və b. bu kimi amillər bu çatışmazlıqların olduğunu göstərir.

İnnovasiya sahibkarlığının inkişafetmə mexanizminin tətbiq edilməsindən əsas nəticələri aşağıda göstərilən qaydada kimi istifadə etmək daha məqsədəuyğundur:

- KİM-in miqdarının çoxaldılması;
- Sosial effect;
- iş yerlərinin yaradılması, işədüzəltmə üzrə müavinətlərin ödənilməsinə və işsizliyə görə dövlət xərclərinin aşağı endirilməsi;
- alimlər, mütəxəssislər, həmçinin ali təhsil məktəblərinin aspirant və tələbələri üçün əlavə gəlir mənbələri yaradılması;
- İnnovasiya potensialının artırılması;
- ÜDM-də innovasiya məhsulundan gəlirlərin payının çoxaldılması.
- İnnovasiya məhsullarının buraxılışını müəyyən edən göstəricilərin artımı.
- Kiçik innovasiya sahibkarlığı subyektlərinin başlıca istehsal fondlarının sürətli şəkildə modernizasiyası və yenilənməsi.

İnnovasiya sahəsində aktivliyin sürətlə artması müasir iqtisadiyyatın başlıca prioritetlərindəndir. Bu hər halda ölkədə mövcud sahə və regional problemlərinin rəqabətyönlü qabiliyyətliliyinin təmin olunmasında üsusi rol oynayır. İnnovasiya sahəsində aktivliyin çox olması, eləcə də ölkənin istehsalat sahəsinin başlıca inkişaf obyektidir. Bu baxımdan da, istehsalat sahələrinin inkişaf etdirilməsi bilavasitə innovasiya faəliyyətlərinə müvafiq olaraq təşkil olunmalıdır.

Azərbaycanda kiçik sahibkarlığa yardım infrastrukturunun təşkil edilməsi və inkişafı üçün ölkənin strateji innovasiya inkişaf modeli işlənib hazırlanmışdır. İnnovasiya sahibkarlığının inkişafı üzrə təşkilati və iqtisadi mexanizm işlənib hazırlanmışdır. Həmin mexanizm KİM-in inkişafının təkmilləşdirilməsi üçün, üsul, alət və metodların məcmusu kimi adəcə bütövlükdə ölkə üzrə deyil, eləcə də onun iqtisadi rayonları üzrə tətbiq edilə bilər. İşlənib hazırlanan mexanizm sahibkarlığın innovasiya inkişafına yardım istiqamətlərinə əsasən tədbirlər sistemini nəzərdə tutur.

Azərbaycanda innovative fəaliyyətin, innovativ sahibkarlığın inkişafı ilə əlaqədar aşağıdakı təklifləri verə bilərik:

1. milli rəqabətədavamlı məhsul istehsal olunmasına yönəldilən innovasiya fəaliyyətinin stimullaşdırılması;

2. insan kapitalının formalaşmasına güc verən peşə, ixtisas və təhsil sahəsində uyğun istiqamətdə siyasətin aparılması;

3. innovasiya fəaliyyəti ilə əlaqəli büdcə-vergi tənzimlənməsinin davamlı olaraq həyata keçirilməsi;

4. kiçik innovasiya sahibkarlığının inkişafı üçün güzəştli vergi sisteminin şərtlərinin daha da yüngülləşdiirlməsi;

5. innovasiya sferasının maliyyə təminatının reallaşdırılması;

6. Azərbaycanın iqtisadi inkişafında innovasiya fəaliyyətini həyata keçirən, yaxud həvəsləndirən amillərdən biri də investisiya təminatıdır. Bununla bağlı müasir iqtisadiyyatlı ölkələrin təcrübəsinin öyrənilib iqtisadiyyatın xüsusiyyətlərini nəzərə alaraq iqtisadi fəaliyyət sahələrində tətbiq edilməsi;

7. innovasiya sahibkarlığının təkmilləşdirilməsi mexanizminin stimullaşdırılması prosesində adəcə mövcud xüsusiyyətləri, başqa-başqa innovasiya istiqamətli təsərrüfat subyektləri tərəfindən, həmçinin ümumilikdə bazar münasibətləri iştirakçılarının effektiv inkişafı üçün formalaşdırılan şəraitin nəzərə alınması.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Abbasov S.A., “Sahibkarlıq biznesin təşkilinin forması kimi”, Bakı, 2017, Azərbaycan Vergi xəbərləri, 17 səh.

2. Atakişiyev M., Süleymanov Q., (2014) “İnnovasiya menecmenti” (2004), Bakı, “Qərb-Şərq nəşriyyatı”, 415 səh.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, (2018-2019), Bakı

4. Əhmədov T., (2012) “Azərbaycanda orta və kiçik sahibkarlığın inkişafına dair”, Bakı, “Səda”, 242 səh.

5. Əliyev A.V., (2018) “Sahibkarlıq fəaliyyətinin mahiyyəti və formaları”, Şamaxı, “Çıraq”, 17 səh.

6. Əliyev T.N., Babayev L.B., (2013) “Regional innovasiya sisteminin təşkili, idarə olunması”, Bakı, “Elm”, 342 səh.

7. Hüseynova A.D., “Azərbaycanda innovasiya fəaliyyətininin inkişaf yolu”, Bakı, Azərbaycanın Vergi jurnalı, 2015, 129-144 səh.

8. İbrahimov İ.H., (2010) “Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri”, Bakı, “Səda”, 248 səh.

9. İsmayılov B.V., (2018) “Strateji menecment,” Bakı, “Elm və Təhsil” 296 səh.

10. “Kiçik və orta sahibkarlar üçün vergi güzəştləri”, (2018), Bakı, PwC Azerbaijan Times, 20 saylı buraxılış, dekabr, 4 səh.

11. Namazov N.İ., (2018) “Sahibkarlığın formalaşmasına və inkişafına təsir edən amillər”, Bakı, JTCEM, Vol 1, Issue 3, 1-3 səh.

12. Niftullayev V.M., (2002) “Sahibkarlığın əsasları”, Bakı, “Zaman”, 619 səh.

13. Qasımov F.H., İsmayılov İ.H., Qasımova L.F., (2008) “Sahibkarlığın əsasları”, Bakı, “MMA”, 602 səh.

14. Qasımov F.H., Nəcəfov Z.M., (2009) “İnnovasiyaların yaranması, inkişaf perspektivləri”, Bakı, “Elm”, 416 səh.

15. Qasımov İ.H., Cəbiyev F. Q., (2017) “İnnovasiya sahibkarlığı və texnoparklar”, Bakı, “Bakı Mühəndislik Universiteti”, 183 səh.

16. Qurbanov N.Ə., (2013) "İnnovasiya menecmenti", Bakı, "Azərbaycan" nəşriyyatı, 234 səh.
17. Tağıyev A.H., Aslanzadə İ.A., (2017) "İnnovasiya menecmenti", Bakı, "Elm", 368 səh.
18. Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X., (2001) "İqtisadi nəzəriyyə", Bakı, "Zaman", 241 səh.

**İngilis dilində**

1. "Doing business 2019", (2019) "Training for reform", World Bank Group, 311 pp.
2. Gerguri Sh., Rexhepi G., Ramadani V. (2013) "Innovation strategies and competitive advantage", 26 pp.
3. Levie J., Autio E. A., (2008) "Theoretical grounding, test of the GEM model", small bus. Econ., № 31 (3), 263 pp.

**Rus dilində**

1. Марвина И.Н., (2017) «Стратегический менеджмент» Екатеринбург, 134 стр.
2. Медынский В.Г.,(2009) «Инновационный менеджмент» Москва, 85 стр
3. Фатхуддинов Р.А., (2008) «Инновационный менеджмент» Москва, 240 стр.
4. Чепуренко А. Ю., Яковлев А. А., (2013) «Теория предпринимательства: важность контекста», Рос. журнал менеджмента № 2. 134 стр.
5. Шумпетер Й. А., (2007) «Теория экономического развития», М.: Эксмо, 124 стр.
6. Шумпетер Й. А., (2008) «Теория экономического развития», М.: Директ медиа Паблишинг, 232 стр.

## İnternet resursları


1. http://www.e-qanun.az/framework/41320, 2019
2. https://www.stat.gov.az/news/index.php?id=4269, 2019
3. https://www.stat.gov.az/source/entrepreneurship/, 2018

## Cədvəllərin siyahısı

Cədvəl 1: Fəaliyyətdə olan mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı....21

Cədvəl 2: Yeni yaradılmış mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı....21

Cədvəl 3: Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin əsas makro-iqtisadi göstəriciləri.......................................................................................................31

Cədvəl 4: İqtisadi fəaliyyət növləri üzrə orta aylıq əmək haqqı, manat..................62

## Şəkillərin siyahısı

Şəkil 1: Dövlətin sahibkarlıq fəaliyyətinə təsiri....................................................27